# Bakıda özünü dənizə atan qızı dalğıclar xilas etdi




**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Bakı şəhəri, Səbail rayonunda yerləşən Dənizkənarı Milli Park ərazisində 1 nəfərin intihar məqsədilə özünü dənizə atması barədə məlumat daxil olub.**

FHN-dən "Şərq"ə bildirilib ki, məlumatla əlaqədar dərhal hadisə yerinə FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin "Bakı-bulvarı" dalğıc-axtarış qrupunun qüvvələri cəlb edilib.

Həyata keçirilən operativ xilasetmə əməliyyatı nəticəsində intihar məqsədilə özünü dənizə atmış Fərzəlizadə Aytən Vasif qızı dalğıc-axtarış qrupunun dalğıcları tərəfindən xilas edilərək, ilkin yardım göstərildikdən sonra aidiyyəti üzrə təhvil verilib.

## DSX-nin çavuşu qeyri-döyüş şəraitində vəfat edib

**Dünən Dövlət Sərhəd Xidmətinin (DSX) Yevlax şəhərində yerləşən hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu çavuş Nabatəlizadə Ceyhun Şahin oğlu qeyri-döyüş şəraitində vəfat edib.**

DSX-dən Trend-ə verilən məlumata görə, Dövlət Sərhəd Xidmətinin rəhbər vəzifəli şəxsləri hadisə yerinə ezam olunublar.

"Hadisə ilə əlaqədar prokurorluq orqanlarının əməkdaşları ilə birlikdə araşdırma tədbirləri həyata keçirilir", - məlumatda qeyd edilir.

❒ № 21 (5543), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 fevral 2022-ci il (cümə)



# Ermənilərin saxtalaşdırdığı alban kilsələri ilə bağlı sübutlar toplanır

**"Ermənilər abidələrimiz üzərində izlər qoyublar, bununla bağlı hazırda sübutlar toplayırıq".**

Bunu jurnalistlərə açıqlamasında mədəniyyət naziri Anar Kərimov deyib.

İşçi qrupun yaradıldığını deyən nazir, həmin qrupda alban tarixini, mədəniyyətini, yazılarını bilən mütəxəssislərin yer aldığını vurğulayıb: "Biz həmin mütəxəssislərlə birgə azad edilmiş ərazilərə baxış keçirib sonra növbəti addımlar atacağıq. Bununla bağlı albanşünaslıq sahəsində beynəlxalq ekspertlərə iş aparılır, onların Azərbaycana dəvət edilməsi planlaşdırılır. Bildiyiniz kimi, təhlükəsizlik baxımından həmin ərazilərə gedə bilmirik. Növbəti mərhələlərdə həm yerli, həm də beynəlxalq mütəxəssislərlə birgə erməniləşdirilmiş alban abidələrinin olduğu ərazilərə gedəcəyik və saxtakarlıqları sənədləşdirib beynəlxalq ictimaiyyətə təqdim edəcəyik".



## Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq müzakirə olunub

**Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının (Aİ) Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelylə görüşüb.**

Bu barədə avropalı diplomat tviterdə yazıb.

"Cənub Qaz Dəhlizi Məşvərət Şurası iclası ərəfəsində biz Aİ-Azərbaycan enerji tərəfdaşlığından və enerji təhlükəsizliyinin əhəmiyyəti barədə söhbət etdik. Tərəfdaşlığımızın gücləndirilməsini müzakirə etdik. Aİ-nin Cənubi Qafqaza dəstəyilə bağlı məsələlərə toxunduq", - Oliver Varhely qeyd edib.

## 266 deputat səs verib

Türkiyə Parlamenti Şuşa Bəyannaməsini təsdiq edib



**Türkiyə Böyük Millət Məclisi Şuşa Bəyannaməsini ratifikasiya edib.**

"Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə" qanun layihəsinin lehinə 266 deputat səs verib.

*Qeyd edək ki, fevralın 1-də "Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə" qanun layihəsi Türkiyə parlamentinə daxil olub.*

(səh.2)

# "Ermənistanın şərt irəli sürməyə haqqı yoxdur"

Ceyhun Bayramov: "Hələ də biz delimitasiya prosesinə başlamaq üçün Ermənistan tərəfindən davamlılıq, ardıcıllıq görmürük"




**"İki həftə öncə Ermənistan tərəfi Rusiya vasitəsilə Azərbaycanla sərhədin delimitasiyası ilə bağlı yeni təkliflər verib. Lakin Ermənistanın sərhədlərin delimitasiyası ilə bağlı hər hansı bir şərt irəli sürməyə nə hüquqi, nə siyasi, nə mənəvi haqqı var".**

Bunu xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə birgə mətbuat konfransında deyib.

Nazir bildirib ki, müəyyən mənada prosesə başlamaq üçün ilkin şərtlər irəli sürülüb.

"Ermənistan tərəfi Komissiyanın işə başlaması üçün müəyyən şərtlər irəli sürüb. Azərbaycan heç bir qeyd-şərt olmadan bu prosesə açıq olduğunu bildirib", - deyə nazir qeyd edib.

C.Bayramov əlavə edib ki, sərhədlərin delimitasiyası məsələsində "kreativ" yanaşmalara ehtiyac yoxdur, beynəlxalq sərhədlər tanınmalıdır. 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın sərhədlərin delimitasiyası ilə bağlı hər hansı bir şərt irəli sürməyə nə hüquqi, nə siyasi, nə mənəvi haqqı var.

(səh.2)



## Avropa Şurasının Azərbaycandakı Ofisinin rəhbəri MEDİA-da olub

**Fevralın 3-də Avropa Şurasının Azərbaycan Respublikasındakı Ofisinin rəhbəri, səfir Zoltan Hernyeş Medianın İnkişafı Agentliyində olub.**

"Şərq" xəbər verir ki, Agentliyin İcraçı direktoru Əhməd İsmayılov qonaqlara ölkədə media islahatlarının gedişi və "Media haqqında qanun" barəsində məlumat verib.

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.*

# "Türkiyənin qurduğu masa Ukraynaya yeni fürsət yarada bilər"

**Asif Nərimanlı:** "Rusiya münaqişələrə nəzarət etsə belə, onun üçün əlavə təzyiq dalğası yaradır"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ukraynalı həmkarı Vladimir Zelenskinin dəvəti ilə rəsmi danışıqlar aparmaq üçün Kiyevə gedib.**

Borispol hava limanında səlahiyyətlilər tərəfindən qarşılanan Ərdoğan və onu müşayiət edən həyat yoldaşı Əminə Ərdoğan xüsusi çörəyə qonaq edilib.

Türkiyə lideri rəsmi səfəri çərçivəsində Naməlum Əsgər abidəsi önünə əklil qoyacaq və Marinski sarayında rəsmi qarşılanma mərasimindən sonra Zelenski ilə təkbətək görüşəcək. Daha sonra Ərdoğan Yüksək Səviyyəli Strateji Şuranın Onuncu Toplantısına qatılacaq. Görüşdən sonra sazişlərin imzalanma mərasimi və birgə mətbuat konfransı keçiriləcək.

(səh.4)



## Daha 18 nəfər vəfat edib

Son sutkada 6 113 nəfər COVID-19-a yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 6 113 yeni yoluxma faktı qeydə alınıb, 3 267 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 18 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 676 426 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 633 994 nəfər müalicə olunaraq sağalıb, 8 797 nəfər vəfat edib, aktiv xəstə sayı 33 635 nəfərdir.

## "Facebook" erməni terrorçuya həsr olunmuş səhifəni bağlayıb

Səhifə azərbaycanlı istifadəçilərin şikayətindən sonra bloklanıb




**"Facebook" sosial şəbəkəsi erməni terrorçu Monte Melkonyana həsr olunmuş səhifəni bağlayıb.**

Trend-in Ermənistan KİV-lərinə istinadən məlumatına görə, bu barədə Ermənistanın ombdusmanı Arman Tatoyan bildirib.

Qeyd olunur ki, səhifə azərbaycanlı istifadəçilərin şikayətindən sonra bloklanıb.

A.Tatoyanın sözlərinə görə, "Facebook" səhifənin bağlanması ilə bağlı hər hansı bir şərh verməyib.



## "İnsanlar pensiya yaşına çata bilmirlər"

Vahid Əhmədov: "Cəmiyyətdən gələn çağırışlar, tələblər nəzərə alınaraq pensiya yaşı azaldılmalıdır"

(səh.4)

## Omikron ağciyərləri zədələmir

Professor: Yoluxma 80 min olsa da, qorxusu yoxdur



(səh.6)

# "Ermənistanın şərt irəli sürməyə haqqı yoxdur"

## Ceyhun Bayramov: "Hələ də biz delimitasiya prosesinə başlamaq üçün Ermənistan tərəfindən davamlılıq, ardıcıllıq görmürük"




**"Delimitasiya prosesinin başlanması üçün "kreativ yanaşmalara" ehtiyac yoxdur". Bunu Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov macarıstanlı həmkarı Piter Siyarto ilə görüşdə deyib. Nazir bəyan edib ki, beynəlxalq sərhədlər tanınmalı, komissiyanın işinə başlanılmalıdır:**

"Bəlli ilkin şərtlər irəli sürülmüşdü. Azərbaycan tərəfi qısa zaman ərzində mövqeyini çatdırdı. Bu prosesə heç bir qeyd-şərt olmadan başlaya biləcəyimiz ifadə olunmuşdu. Bu, təcrübələrə əsaslanan prosesdir, prosesin başlaması üçün "icadlara" ehtiyac yoxdur. Ermənistan 30 il ərzində digər qonşu ölkənin torpaqlarının 20 faizə yaxın bir hissəsini işğal altında saxlayıb. Bütün beynəlxalq hüquq norma və prinsiplərini pozub. Belə bir dövlətin işğal faktına son qoyulandan sonra prosesin müəyyənləşdirilməsi üçün hansısa ilkin şərtlər irəli sürməsinə hesab edirik ki, nə siyasi, nə hüquqi, nə də mənəvi haqqı var. Ermənistan tərəfinin bunu tez bir zamanda anlayacağına ümid edirik. Bu, region üçün faydalı olar".

**"Ermənistan Rusiya vasitəsilə Azərbaycana təkliflər göndərib"**

Azərbaycan XİN başçısı qeyd edib ki, iki ölkə arasında delimitasiya prosesinin başlanması ilə bağlı birgə ikitərəfli komissiyanın yaradılması istiqamətində davamlı, ardıcıl yanaşma müşahidə edilmir: "Təxminən iki həftə əvvəl Ermənistan tərəfi Rusiya vasitəsilə delimitasiya prosesinin başlanması ilə bağlı yeni təkliflərini göndərib. Lakin Ermənistanın hər hansı bir şərt irəli sürməyə nə hüquqi, nə siyasi, nə də mənəvi haqqı var. Müəyyən mənada prosesə başlamaq üçün ilkin şərtlər irəli sürülüb. Komissiyanın işə başlaması üçün belə bir şərtlər qoyulub. Qısa müddət ərzində Azərbaycan öz mövqeyini qarşı tərəfə çatdırıb".

**"Ermənistan komissiyanın işində fəaliyyətini dayandırmışdı"**

**C.Bayramov vurğulayıb ki, Azərbaycan dövləti yeni postmünaqişə dövründə beynəlxalq hüquqa əsaslanaraq münasibətlərin normallaşması istiqamətində konkret addımlar atıb:** "Həmkarıma üçtərəfli bəyanatlardan irəli gələrək kommunikasiyaların açılmasına verdiyimiz töhfə və 2021-ci ilin yanvar ayında üçtərəfli komissiyanın çoxsaylı iclaslarında iştirakımız və davamlı töhfəmiz barədə məlumat verdim. Əfususlar olsun ki, Ermənistan tərəfindən bir neçə dəfə komissiyanın işi pozulub. Komissiyanın işində fəaliyyətlərini dayandırmışdılar. Hələ də biz bu istiqamətdə davamlılıq, ardıcıllıq görmürük".

**İsmayıl**



**"Türkiyə Rusiya-Ukrayna gərginliyinə son qoymaq üçün əlindən gələni edəcək".**

# Rusiya-Ukrayna gərginliyinə son qoyulmalıdır

## Ərdoğan: "Türkiyə bunun üçün əlindən gələni edəcək"

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

"Mən 2 ildən sonra strateji tərəfdaşımız Ukraynaya yenidən səfər etməkdən qürur duyuram. Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyimizi bir daha bəyan etmək istəyirəm. İnanıram ki, biz hər sahədə ikitərəfli əməkdaşlığımızı gücləndirəcəyik", - Türkiyə lideri qeyd edib.

**Ərdoğan bu gün imzalanan azad ticarət sazişindən də danışıb:**

"10 milyard dollarlıq ticarət həcmi hədəfini qiymətləndirdik. İnanıram ki, razılaşma bizi tez bir zamanda bu məqsədə aparacaq".

# Vaxt və yer açıqlanıb

## Türkiyə və Ermənistan nümayəndələri fevralın 24-də Vyanada görüşəcək



**Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində xüsusi nümayəndələr yenidən görüşəcək.**

Bu barədə "Report"un yerli bürosuna Türkiyə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Məlumatda qeyd olunub ki, nümayəndələr Serdar Kılıç və Ruben Rubinyan arasında görüş fevralın 24-də Vyanada keçiriləcək.

Xatırladaq ki, Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlər hələ bərpa olunmayıb. 2021-ci il dekabrın 13-də Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bəyan edib ki, münasibətlərin normallaşması üçün qarşılıqlı şəkildə nümayəndələr təyin olunacaq. Ermənistan XİN-i bu bəyanatı dəstəkləyib.

Daha sonra Ankara Türkiyənin ABŞ-dakı keçmiş səfiri Serdar Kılıcı İrəvanla münasibətlərin normallaşması üzrə xüsusi nümayəndə təyin edib. Ermənistan tərəfdən parlamentin sədr müavini Ruben Rubinyan təyin edilib.

*Xüsusi nümayəndələrin ilk görüşü yanvarın 14-də Moskvada baş tutub.*

# İqtisadiyyatımız yeni-yeni canlanır

## Azərbaycanda indiki halda yenidən sərt qapanmalara getmək arzuolunan deyil



**"Son günlər qonşu ölkələrdə də yoluxma sayında ciddi artımlar müşahidə olunur. Bütövlükdə dünyada 3 milyondan çox insanda virus aşkarlanıb".**

Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, əksər ölkələrdə yoluxma sayları rekord səviyyədə olsa da, bir sıra dövlətlər karantin rejiminin ləğv edilməsi və ya tamamən yumşaldılması kimi qərarlar qəbul edirlər: "Bu isə ondan xəbər verir ki, dünya sərt karantinlərdən, yumşaq desək, bezib. Buna görə də ölkələr "lock down" qərarlarının qəbulunda ehtiyatlıdırlar. Azərbaycan yumşaq karantin rejimini tətbiq edən ölkələrdəndir. "Omikron" virusunun yayılma dairəsinin geniş olmasına baxmayaraq, indiki halda yenidən sərt qapanmalara getmək arzuolunan deyil. Real sektordakı açılımların və yenidən bərpa olunan aktivliyin qorunub saxlanması vacibdir. Xidmət, ictimai iaşə və turizm kimi sektorlarda aktivlik artıq bərpa olunur. 2022-ci ildə daha geniş dövriyyə hədəflənir. Bu baxımdan, sərt karantın tədbirlərinin tətbiqi deyil, hər birimizin virusdan qorunmaqla bağlı qaydalara tam əməl etməyimiz daha azruolunandır. Sərt karantin iqtisadi aktivliyi məhdudlaşdırdığı üçün məqsədəuyğun hesab olunmur".

**İsmayıl**

# Xocalı soyqırımının tanınması

## Ukrayna XİN-ə prosedura başlamaq barədə müraciət olunub



**Ukrayna Xarici İşlər Nazirliyinə Xocalı soyqırımının tanınması ilə bağlı prosedura başlamaq barədə müraciət olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "Şərq"ə verilən məlumata görə, müraciəti Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Lyudmila Marçenko imzalayıb.

Müraciətdə bildirilir ki, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, "Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu"nun sədri Hikmət Cavadovun imzası ilə Ali Radaya daxil olan məktubda Xocalı soyqırımının tanınması məsələsi qaldırılıb.

Deputat qeyd edib ki, 30 il əvvəl Xocalıda baş verən hadisələr açıq-aydın soyqırımı əlamətlərini daşıyır. Bununla əlaqədar artıq bir çox ölkənin qanunverici orqanı və beynəlxalq təşkilatlar tərəfindən Xocalı soyqırımının bəşəriyyətə qarşı cinayət olduğu təsdiqlənib. "Xocalı faciəsinin soyqırımı kimi tanınması tarixi ədalətin bərpasına, Ukrayna və Azərbaycan arasında olan dostluq münasibətlərinə töhfə verəcək" - deyə müraciətdə bildirilir.

Lyudmila Marçenko öz deputat səlahiyyətlərindən istifadə edərək, xarici işlər naziri Dmitri Kulebadan soyqırımının tanınması proseduruna başlamağı xahiş edib.

Xatırladaq ki, ötən ilin oktyabr ayında Milli Məclisin və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupu üzvlərinin Azərbaycana səfəri baş tutub. Səfər çərçivəsində Gəncə və Ağdama da gedən ukraynalı deputatlar səfərin nəticələrinə dair yaydıqları birgə bəyanatda erməni terrorunun nəticələrindən dəhşətə gəldiklərini, dünyanın bu terrorlara biganə qalmamalı olduğunu bildiriblər.




# 266 deputat səs verib

## Türkiyə Parlamenti Şuşa Bəyannaməsini təsdiq edib

**Türkiyə Böyük Millət Məclisi Şuşa Bəyannaməsini ratifikasiya edib.**

"Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə" qanun layihəsinin lehinə 266 deputat səs verib.

Qeyd edək ki, fevralın 1-də "Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə" qanun layihəsi Türkiyə parlamentinə daxil olub.(apa)

Xatırladaq ki, fevralın 1-də Azərbaycan Milli Məclisinin plenar iclasında "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib. Beləliklə, Milli Məclis "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsini təsdiqləyib.

# Azadə Balayeva AMEA-ya yeni mətbuat katibi təyin olunub



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinə yeni mətbuat katibi təyin olunub.**

Bununla bağlı Rəyasət Heyətinin iclasında qərar verilib.

İclasda AMEA Rəyasət Heyəti aparatının ştat strukturunda qismən dəyişiklik edilib.

Rəyasət Heyətinin qərarı ilə Azadə Balayeva AMEA Rəyasət Heyətinin Mətbuat xidmətinin rəhbəri vəzifəsinə təyin olunub.

# BDU-nun mətbuat xidmətinin rəhbəri vəzifəsindən ayrılıb



**Bakı Dövlət Universitetinin (BDU) mətbuat xidmətinin rəhbəri Günel Orucəliyeva vəzifəsindən ayrılıb.**

Bu barədə G.Orucəliyeva özünün "Facebook" profilində yazıb.

O, bundan sonrakı fəaliyyətini BDU-nun tarixi muzeyinin müdiri və Jurnalistika fakültəsinin müəllimi kimi davam etdirəcəyini qeyd edib.




# Mümkün görünmür

## "NATO ölkələri Ukraynaya birbaşa hərbçi göndərə bilməz"

**ABŞ-ın Müdafiə Nazirliyi ölkə hərbçilərindən ibarət əlavə qrupun Şərqi Avropa ölkələrinə göndərilməsini şərh edib.**

Pentaqondan bildirilib ki, bu, NATO-nun şərq cinahını möhkəmləndirmək məqsədi daşıyır. Qurum ABŞ hərbçilərinin Ukraynaya göndəriləcəyini də istisna etməyib: "ABŞ əsgərləri "təxliyə prosesinə yardım etmək üçün" bu ölkəyə göndərilə bilər".

**Politoloq Əlimusa İbrahimov Pentaqonun açıqlamasını "Şərq"ə şərh edib. O qeyd edib ki, hazırda ABŞ hərbçilərinin Ukraynaya göndərilmə ehtimalı kütləvi informasiya vasitələri və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən ciddi müzakirə olunur:**

"Düşünmürəm ki, indiki halda NATO öz hərbçilərini Ukraynaya göndərsin. Bu təşkilata daxil olan ölkələrin heç biri Ukraynaya qoşun və hərbçi göndərə bilməz. Çünki NATO-nun ona üzvü olmayan hər hansısa ölkəyə hərbi kontensalla kömək etməsi mümkünsüzdür. Ukrayna da NATO üzvü deyil".

Ə.İbrahimov hazırda müxtəlif ölkələrin rəsmi Kiyevə yardım etmək istədiyini diqqətə çatdırıb:

"Həmin ölkələr Ukraynaya yalnız digər yollarla silah göndərməklə, maddi, eləcə də siyasi dəstək verə bilərlər" .

**Günəş Mərd**

*Anar Kərimov:*

# "Bu, UNESCO-nun siyasiləşmiş təşkilat olmasından xəbər verir"



**"Ötən il ermənilər Şuşadan qeyri-qanuni çıxardıqları xalçaları İrəvanda sərgiləmişdilər, əhtta xalçalarımızın Şuşadan çıxarıldığını həyasızcasına bəyan bel əetmişdilər".**

APA-nın xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında mədəniyyət naziri Anar Kərimov deyib.

Nazir bununla bağlı hələ o vaxt dərhal bəyanat verildiyini vurğulayıb: "Biz UNESCO-ya da müraciət etdik. Orda olan xalçaların Qarabağ xalçaları olduğu faktlarla sübuta yetirildi. Təəssüflər olsun ki, beynəlxalq təşkilatlar, xüsusilə də UNESCO məsələ ilə bağlı konkret addımlar atmır. Bu da onun siyasiləşmiş təşkilat olmasından xəbər verir. Ancaq bu o demək deyil ki, biz dayanacağıq. Həmin xalçaların hazırda Azərbaycana qaytarılması mümkün olmasa da qeyri-qanuni olan bir məsələnin pislənməsini gözləyirik".

# Pentaqon: Rusiya Ukraynanın işğalı üçün bəhanə tapa bilər



**Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi Rusiyanın Ukraynanı işğal edə biləcəyi haqqında məlumatlara sahibdir.**

APA xəbər verir ki, bu barədə Pentaqon məlumat yayıb.

"Rusiya Federasiyası işğal üçün bəhanə tapa bilər" deyə Pentaqonun sözçüsü Con Kirbi bildirib.

Öz növbəsində, Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov bu iddiaları şərh edərkən, bildirib ki, bu, ABŞ-ın ilk belə açıqlaması deyil.

# Azərbaycan Ermənistanın təkliflərinə mənfi reaksiya verib

## Mirzoyan: "Amma proses davam edir"



**"Ermənistan Azərbaycan və Rusiya ilə təmas xəttində təhlükəsizlik mexanizmlərinin yaradılmasını müzakirə edir". Sputnik Azərbaycan xəbər verir ki, bunu Ermənistan xarici işlər naziri Ararat Mirzoyan jurnalistlərə müsahibəsində deyib.**

Mirzoyanın sözlərinə görə, Ermənistan öz öhdəliklərinə sadiq qalır və ölkəsi Ermənistan, Rusiya və Azərbaycan başçılarının Soçi görüşündə razılaşdırılan delimitasiya üzrə komissiyanın yaradılmasına hazırdır.

"İndi biz Azərbaycan və Rusiya ilə təmas xəttində təhlükəsizlik və sabitlik mexanizmlərinin yaradılması vasitələrini müzakirə edirik. Mən artıq müxtəlif təkliflərin verildiyini demişəm. Danışıqlar davam edir", - Mirzoyan bildirib.

"Konkret olaraq Azərbaycan Ermənistanın son təkliflərinə mənfi reaksiya verdi. Amma proses davam edir. Prosesdə Yerevan üçün qəbuledilməz olan təkliflər də var idi".

*Mirzoyan daha əvvəl bildirmişdi ki, Ermənistan tərəfi sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində Azərbaycan üçün qəbuledilməz məsələləri anlamağa çalışır.*



# Uçuş başladı, reallıqlar dəyişir

## Türkiyənin İrəvana yönəlik siyasəti normal və anlaşılandır

**İsmayıl Qocayev**

**Türkiyə Azərbaycan torpaqlarının işğalına etiraz olaraq 1993-cü il aprelin 3-də Ermənistanla bütün sərhədlərini bağlayıb. Eyni zamanda diplomatik əlaqələri kəsərək, dəmiryol, hava əlaqələrini, tranzit-ticarət xətlərini kəsdiyini elan edib. 29 ildən sonra Türkiyə ilə Ermənistan arasında uçuşlar qarşılıqlı şəkildə bərpa olunub.**

Ötən gün ilk təyyarə İrəvandan İstanbula uçub. Sərnişinlər uçuşdan öncə İrəvan Zvartnots hava limanında Ara Gülərin İstanbul fotoşəkillərindən ibarət sərgisinə baxıblar. 64 sərnişin İstanbul hava limanında gül-çiçəklə qarşılanıb. İki ölkə arasındakı əlaqələrdən danışan Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan deyib ki, Türkiyə ilə münasibətlərin normallaşması Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətə müsbət təsir göstərəcək: "Problemlərin həlli, münasibətlərin normallaşması bütün regiona və paralel proseslərə həmişə müsbət təsir göstərir". Türkiyənin Böyük Birlik Partiyasının sədri Mustafa Destici bildirib ki, Ermənistan Türkiyə ilə münasibətlərin normallaşmasını istəyirsə, iki mühüm addım atmalıdır. Desticiyə görə, ermənilər türk tarixinə qarşı əsassız, qondarma erməni "soyqırımı" iddialarından əl çəkməlidir. Partiya sədrinin fikrincə, bunlardan əl çəkmədən normallaşma prosesi nə sağlam, nə də uzunmüddətli olacaq.

**Ankara-İrəvan əlaqələrini "Şərq"ə dəyərləndirən Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirib ki, iki ölkə arasında birbaşa təyyarə reysləri olmasa da, ermənilər Gürcüstan vasitəsi ilə Türkiyəyə gedə bilirdilər. Partiya rəhbəri vurğulayıb ki, Türkiyədə yüz mindən artıq erməni var:** "Artıq Türkiyə-Ermənistan arasında birbaşa reyslər açılıb. Vaxtı ilə iki ölkə arasında münasibətlərin normallaşması yönündə müəyyən addımlar atılıb. 2009-cu ildə Sürix protokolları imzalansa da, bəlli səbəblərdən icra olunmayıb. Daha sonra Qars bələdiyyəsi Ermənistanla sərhədlərin açılması istiqamətində bir sıra addımlar adıb, hətta bununla bağlı qərar çıxarıb. Narazılıq və gərginlikdən sonra aradan qaldırılıb. İndi vəziyyət fərqlidir, reallıqlar dəyişib. Türkiyə prosesi mümkün qədər yumşaltmağa çalışır. Sirr deyil ki, Türkiyəyə düşmən olan dairələr hər zaman ermənilərdən siyasi məqsədlər üçün istifadə ediblər. Qondarma "soyqırım" və s. məsələlərlə Türkiyənin mövqeyini sarsmağa cəhd göstəriblər. Ankara bu kimi məqamları neytrallaşdırmaq, Rusiyanın Ermənistana təsir imkanlarının azaldılmasına nail olmaq məqsədi güdür. O baxımdan İrəvana yönəlik yumşaq mövqe sərgiləyir. Biz də bunu normal və vacib hesab edirik. Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarından da vaz keçməkdən başqa yolu qalmayıb. Ermənilərin Türkiyəyə ərazi iddiaları istehza ilə qarşılanan qeyri-ciddi məsələlərdən biridir".

**Ə.Oruc vurğulayıb ki, Azərbaycanda "5-ci kolon"un nümayəndələri qəsdən hay-küy salırlar ki, Azərbaycan-Ermənistan arasında yekun sülh imzalanmadan Ankara-İrəvan əlaqələri bərpa olunmamalı, sərhədlər açılmamalıdır:** "Türkiyə rəhbərliyi birmənalı bəyan edib ki, bütün addımlar rəsmi Bakı ilə razılaşdırılır. 44 günlük müharibə ərəfəsində, savaş zamanı və ondan sonrakı mərhələdə qardaş Türkiyənin proseslərdə necə aktiv rol oynadığını bilirik. Regionda yaşananların dolayı şəkildə Türkiyə ilə əlaqəsi var. Türkiyə Azərbaycanla bağlı nəyi bacarırsa, tərəddüdsüz həyata keçirir. O baxımdan bəzi şəxslərin suyu bulandırmasına imkan vermək olmaz. Əfsuslar olsun ki, ölkəmizdəki rusmeyilli qüvvələr, iranpərəstlər, Avropadan maliyyələşən şəxslər Türkiyə ilə qardaşlıq münasibətlərimizə zərbə vurmaq üçün fürsət gözləyirlər. Bir neçə dəfə təklif etmişəm ki, Laçın dəhlizinin mühafizəsində Türkiyə hərbçiləri də iştirak etsinlər. Laçın dəhlizində Türkiyənin hərbi qarnizonu yerləşdirilsin. Bununla bağlı konkret saziş bağlanmalıdır. Qardaş ölkə bütün proseslərin mərkəzində olmalıdır. Bunu da biz təmin etməliyik".

# "Ermənistanla dəmir yolunun açılması indi mənafeyimizə ziddir"

## Politoloq: "Zəngəzur dəhlizinin adi nəqliyyat yolu kimi fəaliyyəti daha çox rus və erməni tərəfinə sərf edir"



**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla bağlı yeni açıqlama verib. Paşinyan iki ölkə arasında kommunikasiyalarının açılmasına yaxın olduqlarını bildirib. Baş nazir deyib ki, rəsmi İrəvan və Bakı dəmiryolu kommunikasiyalarının açılmasına yaxındır. Paşinyan Azərbaycan ilə dəmiryolu əlaqəsinin yeni operatorunun Rusiya Dəmir Yolları olacağını sözlərinə əlavə edib:**

"Artıq Ermənistan tərəfi Yerasxdan (Arazdəyən) Horadizə (Zəngəzur dəhlizi) dəmir yolunun çəkilməsinin praktiki məsələlərini müzakirə edir". Hökumət başçısı xatırladıb ki, Rusiya baş nazirinin müavini Aleksey Overçuk və Rusiya Dəmir Yollarının rəhbəri Oleq Belozerov bir gün əvvəl Ermənistana işgüzar səfərə gəliblər: "Ermənistan baş nazirinin müavini Mher Qriqoryan onlarla görüşüb. Biz üçtərəfli qrupun işinin ilk nəticələrini elan etməyə yaxınıq. Artıq razılığa gəlmişik ki, dəmiryolunun hissələri keçdiyi ölkələrin qanunlarına uyğun fəaliyyət göstərsin". Baş nazir xatırladıb ki, hazırda yolun layihələndirilməsi və maliyyələşdirilməsi müzakirə olunur: "Belə dinamika davam edərsə, yaxın vaxtlarda bu layihəni həyata keçirmək mümkün olacaq".

**Paşinyanın nisbətən pozitiv bəyanatını "Şərq"ə dəyərləndirən BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov deyib ki, Azərbaycan-Ermənistan əlaqələrinin mahiyyəti göründüyü qədər sadə deyil. Partiya təmsilçisi gedişatı qənaətbəxş hesab etmir:** "İstər Ermənistanın, istərsə də "sülhməramlı" adı ilə fəaliyyət göstərən Rusiyanın hərəkətləri göstərir ki, İrəvan özünü məğlub kimi aparmır. Zəngəzur dəhlizinin hüquqi statusu müəyyən edilməmiş, hətta Azərbaycanın "dəhliz" tələbi yerinə yetirilməyənə kimi dəmir yolunun açılması ölkəmizin mənafeyinə ziddir. Zəngəzur dəhlizinin adi nəqliyyat yolu kimi fəaliyyəti daha çox rus və erməni tərəfinə sərf edir. Azərbaycanı Türkiyə ilə birləşdirən "Bakı-Tbilisi-Qars" dəmir yolu fəaliyyətdədir. Nəqliyyat kommunikasiyalarını bu və ya digər formada reallaşdırmaq mümkündür. Amma Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan əlaqələrindəki yüz illik problemlərin qısa müddətdə çözülməsi çətindir. Paşinyanın "xoşməramlı" addımlarına ümidlənərək uzunmüddətli planlar cızmaq sadəlövlük olardı. Rusiya daxil, bir çox güclərin maraq dairələrinin toqquşduğu Cənubi Qafqaz regionunda stabillik və inkişafa doğru xoşməramlı yaxınlaşmaya mane olmaq istəyən qüvvələr var. Sülhdən və əməkdaşlıqdan danışmaq üçün hələlik nə hüquqi, nə də mənəvi baza mövcuddur. Azərbaycan hər zaman güc amilindən istifadə etməlidir. Türkiyə ilə birgə güc nümayişi Ermənistanı sülhə və əməkdaşlığa cəlb etməyin ən yaxşı variantıdır".

**İsmayıl Qocayev**



# Güclə düşüncənin vəhdəti bu gün də vacibdir

## Vətən müharibəsi günlərindəki kimi media və sosial şəbəkələrin səfərbərliyi aktualdır

**İsmayıl Qocayev**

**Prezident İlham Əliyev Gənclər Forumunda çıxış edərkən Qarabağ müharibəsinin təbliğat məsələləri üzərində dayandı. Dövlət başçısı müharibə müddətində sosial şəbəkələrin və ənənəvi media vasitələrinin informasiya cəbhəsindəki fəallığından söz açdı.**

Ölkə rəhbəri qələbənin qazanılmasında Azərbaycan və Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasının mühüm əhəmiyyət daşıdığını vurğuladı. Həmçinin, mövcud istiqamətdəki fəaliyyətin davamlılığını müstəsna vətənpərvərlik missiyası, mənəvi borc olaraq önə çəkdi. Prezidentin qeyd etdiyi məqamlar həmin dövrdəki informasiya aktivliyinin müxtəlif aspektlərini bir daha yada salmaq zərurətini aktuallaşdırır. Bu həm də ona görə vacibdir ki, əldə etdiyimiz zəfərin hansı məziyyətlər hesabına başa gəldiyi barədə düşünək. Ən əsası isə arxayınlaşmayaq.

**Mətbuat Şurasının sədri, sabiq millət vəkili Əflatun Amaşov vurğulayıb ki, dövlət başçısı İlham Əliyev mövzuya əhatəli yanaşmaqla arxayınlaşmamağımızı istəyir. Eyni zamanda informasiya müharibəsinə hazır olmaq prioritetini açıqlayır. Ə.Amaşov xatırladıb ki, müharibə dövründə Azərbaycanın ən başlıca informasiya təbliğatçısı kimi çıxış edən qüvvə Prezident idi:** "Ölkə başçısı dünyanın 30-dan çox media orqanına verdiyi müsahibələrdə Qarabağla bağlı həqiqətlər ənənəvi müdafiə ampluasından çıxdı. Prezident münaqişə ilə bağlı həqiqətləri tarixi və beynəlxalq hüquq baxımdan sistemli şəkildə açıqladı. Ölkəmizin haqlı mövqeyinin müdafiəsində ardıcıllıq və prinsipiallıq göstərdi. Ermənistan rəhbərliyinin saxta mahiyyətini ifşa etdi. İnformasiya müstəvisindəki təxribat və manipulyasiyaları heçə endirərək beynəlxalq aləmi savaşımızın müqəddəsliyinə inandırdı. Dövlət başçısının xalqa müraciətlərinin informasiya savaşındakı önəmi də xüsusi vurğulanmalıdır. Bu müraciətlər nəticəsində hər bir sıravi azərbaycanlı informasiya müharibəsinin əsgərinə çevrildi. Ali Baş Komandanın fikirləri insanlarımızı müharibəyə kökləyirdi. Həm də kənar təsirlərdən, eləcə də informasiya diversiyalarının mənfi təzahürlərindən qoruyurdu. Onu da vurğulamaq lazımdır ki, xalqın dövlət başçısı ilə həmrəyliyi xaricə ünvanlanmış kifayət qədər ciddi mesaj idi".

MŞ sədrinin sözlərinə görə, Ordumuz cəbhə boyu əks-hücum əməliyyatına başlayarkən KİV cəmiyyətdəki böyük ruh yüksəkliyini istiqamətləndirən ictimai institut kimi çıxış etdi: "Bu institutun vəzifəsi həm müharibə reallıqlarına düzgün reaksiyasının formalaşdırılmasından, həm də proqnozlaşdırılan dezinformasiyaların mənfi təsirlərini önləməkdən ibarət idi. Ölkəmizin müvafiq dövlət qurumlarının səmərəli fəaliyyəti fonunda biz medianın, eləcə də sosial medianın dövlətin reallaşdırdığı tədbirlərə münasibətdə adekvat işini gördük. İstər Müdafiə Nazirliyi, istərsə də digər qurumlar müxtəlif mənbələr tərəfindən yayılmış informasiyalara kifayət qədər çevik reaksiya verdilər. Yəni dövlət KİV-i zəruri bilgilərlə operativ şəkildə təmin etdi. Bilgilər isə yalnız informasiyalar şəklində olmadı. Onlar həmçinin dezinformasiyaların insanlara təsirini önləmək məqsədi daşıdı. Proses kifayət qədər düşünülmüş formada tənzimləndi, tutarlı arqumentlərlə zənginləşdirildi. Müharibə dövründə informasiya cəbhəsinin xarici seqmentinə ayrıca yanaşma var idi. Dövlət başçısının vurğuladığı kimi, bu seqmentin İkinci Qarabağ müharibəsi ilə bağlı yaydığı fikir və baxışlar əsasən ermənipərəst qüvvələr tərəfindən idarə olunur, mütəmadi yenilənərək dövriyyəyə buraxılır. Nəzərə alaq ki, müharibənin ilk günlərində xarici mediada, xüsusən də Rusiya KİV-lərində tərəfsizlik prinsipi pozulur, öz torpaqlarını işğaldan azad edən Azərbaycan bir növ təcavüzkar kimi göstərilirdi".

*Ə.Amaşov qeyd edib ki, Prezidentin də vurğuladığı kimi, ermənilər informasiya cəbhəsində özlərinə əmin idilər. Xaricdəki informasiya lobbiçiliyinə inanırdılar:* "Hesab edirdilər ki, erməni lobbi və diaspor təşkilatlarının təbliğatı Azərbaycanı təcavüzkar kimi tanıtdırmaq gücündədir. Ancaq tam əks proseslər yaşandı. Ordumuzun uğurlu əməliyyatları fonunda Azərbaycanın informasiya cəbhəsindəki aktivliyi ermənilərə yaxın olan xarici qüvvələri prosesə ədalətli yanaşma barədə düşünməyə sövq etdi. Deməli, həm güc öz sözünü dedi, həm də düşüncə.

Bəli, güclə düşüncənin vəhdəti bu gün üçün də vacibdir. Vətən müharibəsi günlərindəki media və sosial şəbəkələrin səfərbərliyi aktualdır. Ermənistan tərəfindən sülh sazişi ilə bağlı necə pozitiv siqnallar gəlsə belə, əlimiz tətikdə, daha doğrusu, silah kimi istifadə edəcəyimiz qələmdə olmalıdır. Çünki Ermənistan cəmiyyəti, eləcə də xaricdəki erməni lobbi və diaspor təşkilatları öz məğlubiyyətlərini boyunlarına alsalar da, qələbəmizi etiraf etmirlər. Unutmayaq ki, bu etiraf yalnız dayanıqlı sülh deyil, bütövlükdə dominant mövqe qazandığımız Cənubi Qafqaz regionunun təhlükəsizliyi və inkişafı baxımından müstəsna əhəmiyyət daşımaqdadır".

# Rəsmi İrəvan sülh niyyətlərində səmimi deyil

## Onlar bundan sonra gizli şəkildə Azərbaycan ərazilərinə iddialarını saxlayacaqlar

**Ermənistanın "Vətəndaş sazişi" Partiyasının prezidentliyə namizədi Vaaqn Xaçatryan yerli televiziya kanalına müsahibə verib. O, müsahibə zamanı bildirib ki, Ermənistan Azərbaycan və Türkiyə ilə sülh içində yaşamalıdır:**

"Mən düşünürəm ki, qonşularla yalnız sülh şəraitində yaşamaq mümkündür. Ermənistan vətəndaşları anlamalıdır ki, sülh həyat və inkişaf üçün yeganə variantdır. Hətta biz çox güclü olsaq belə, sülhə çalışmalı, digərləri ilə münasibətdə bunu rəhbər tutmalıyıq".V.Xaçatryan Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşdırılması prosesini müsbət qiymətləndirdiyini vurğulayıb: "Prosesi davam etdirmək lazımdır. Nəticədə bu, iqtisadi və siyasi münasibətlərə gətirib çıxaracaq".

Ermənistanın Baş naziri Nikol Paşinyan da hökumətin iclasındakı çıxışı zamanı rəsmi İrəvan və Bakının dəmiryolu kommunikasiyalarının açılmasına yaxın olduğunu deyib: "Azərbaycan ilə dəmiryolu əlaqəsinin yeni operatoru Rusiya Dəmir Yolları olacaq".

**AĞ Partiyanın sədri Tural Abbaslı Vaaqn Xaçatryanın və Nikol Paşinyanın açıqlamalarını "Şərq"ə şərh edib. O bildirib ki, heç bir Ermənistan lideri adının tarixə Qarabağdan imtina etmiş bir rəhbər kimi düşməsini istəməz:** "Yaxud da ermənilərin yüz illər boyu bu ərazi ilə bağlı uydurduqları əfsanələrin üzərindən xətt çəkilsin. Onlar faktiki olaraq Azərbaycanın yekun sülhlə bağlı şərtləri ilə razılaşmayıblar. Amma ümumi sülh müqaviləsində nəzərdə tutulacaq şərtlərin qeyri-rəsmi şəkildə razılaşdırılması elə sülh deməkdir. Bu məsələnin üzərində çox da dayanmaq lazım deyil. Sülh müqaviləsi Ermənistanın daxili vəziyyətini gərginləşdirəcək bir sənəddir". T.Abbaslının fikrincə, Ermənistan rəsmilərinin belə açıqlamaları o demək deyil ki, ermənilər böyük Ermənistan arzusundan əl çəkiblər: "Onlar bundan sonra gizli şəkildə Azərbaycan ərazilərinə iddialarını saxlayacaqlar. İndi onların həm maddi, həm də hərbi cəhətdən buna gücləri çatmır. Digər tərəfdən beynəlxalq aləmdə mövqelərinin zəifləməməsi üçün özlərini sülhpərvər kimi göstərirlər". AĞ Partiya sədrinin sözlərinə görə, tərəflər arasında sülh müqaviləsi olsa da ermənilər özlərini güclü hesab etdikləri ilk andaca yenə özlərinin təcavüzkar simalarını ortaya qoyacaqlar.



**Günəş Mərd**

# Macarıstanın Azərbaycana xoş məramında türk faktoru var

## Sabir Məmmədli: "Bu ölkə rəhbərliyi dəfələrlə vurğulayıb ki, Azərbaycanla, eyni zamanda digər türk dövlətləri ilə sıx əlaqələr qurmaq istəyir"



**Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycana səfərə gəlib. Nazir ilk olaraq Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclasında iştirak edib.**

İclasdan sonra Komissiyanın həmsədrləri - Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin və Macarıstanın Xarici işlər və ticarət naziri Peter Siyartonun brifinqi, Azərbaycan-Macarıstan biznes forumu keçiriləcək.

**Siyasi elmlər doktoru Sabir Məmmədli son illərdəki Macarıstan-Azərbaycan münasibətlərindən "Şərq"ə danışarkən bildirib ki, bu ölkə xeyli müddətdir türk dövlətləri ilə sıx əlaqələr saxlamağa çalışır:**

"Bunun davamı olaraq o hətta Türk Dövlətləri Birliyinə müşahidəçi status əldə edib. Macarıstanda hakimiyyətdə olan siyasi partiya özünü qədim türk kökənli toplum olduğunu əsas götürür. Bununla əlaqədar olaraq da həmişə türk dövlətlərinə, o cümlədən Türkiyə və Azərbaycana çox isti münasibət bəsləyir.

Macarıstan rəhbərliyi dəfələrlə vurğulayıb ki, Azərbaycanla, eyni zamanda digər türk dövlətləri ilə sıx əlaqələr qurmaq istəyir. Bu mənada Macarıstan xarici işlər nazirinin ölkəmizə gəlişi həm ictimaiyyət, həm də dövlət tərəfindən çox müsbət qarşılanır".

***S.Məmmədli diqqətə çatdırıb ki, hazırda bir sıra Avropa ölkələri yanacaq və təbii qaz problemi yaşayır. Onun sözlərinə görə, bu səbəbdən bəzi dövlətlər, o cümlədən Macarıstana qonşu olan Bolqarıstan Azərbaycandan təbii qaz tədarükü məsələsini həmişə diqqətdə saxlayır:***

"Macarıstan Avropa İttifaqının üzvüdür. Nəzərə alsaq ki, Aİ-nin rəhbərliyi bir neçə il əvvəl Azərbaycanla təbii qaz tədarükü məsələsində danışıqlara başlayacağını demişdi. Çünki hazırda Avropa ölkələrinin təbii qaza tələbatı kifayət qədər böyükdür. Belə məqamda Rusiyanın "Şimal Axını-1" vasitəsilə təqdim etdiyi təbii qaz onlara kifayət etmir.

Bu mənada sözsüz ki, həm Aİ, həm də onun ayrı-ayrı üzvləri Azərbaycanla əməkdaşlıq və ticarət əlaqələrinin dərinləşməsi məsələsinə çox böyük önəm verirlər".

Professor eyni zamanda Macarıstan xarici işlər nazirinin ölkəmizə səfəri çərçivəsində tərəflər arasında ticarət və strateji əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetiriləcəyini vurğulayıb.

**Günəş Mərd**

# "Türkiyənin qurduğu masa Ukraynaya yeni fürsət yarada bilər"

## Asif Nərimanlı: "Rusiya münaqişələrə nəzarət etsə belə, onun üçün əlavə təzyiq dalğası yaradır"



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ukraynalı həmkarı Vladimir Zelenskinin dəvəti ilə rəsmi danışıqlar aparmaq üçün Kiyevə gedib. Borispol hava limanında səlahiyyətlilər tərəfindən qarşılanan Ərdoğan və onu müşayiət edən həyat yoldaşı Əminə Ərdoğan xüsusi çörəyə qonaq edilib.**

Türkiyə lideri rəsmi səfəri çərçivəsində Naməlum Əsgər abidəsi önünə əklil qoyacaq və Marinski sarayında rəsmi qarşılanma mərasimindən sonra Zelenski ilə təkbətək görüşəcək. Daha sonra Ərdoğan Yüksək Səviyyəli Strateji Şuranın Onuncu Toplantısına qatılacaq. Görüşdən sonra sazişlərin imzalanma mərasimi və birgə mətbuat konfransı keçiriləcək.

**Səfərin gizlinlərini "Şərq"ə şərh edən analitik, siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, R.T.Ərdoğanın Ukraynaya səfəri əslində Prezident İlham Əliyevin səfərinin davamıdır:**

"Ukrayna-Rusiya arasında vasitəçi olmaq məsələsində təkcə Türkiyə yox, həm də Azərbaycan iştirak edir. Zelenski Brüsseldə Azərbaycan Prezidenti ilə görüşündə xahiş etmişdi ki, Azərbaycan tərəfi əsirlərin qaytarılması prosesində kömək etsin. Çünki bizim Rusiya ilə münasibətlərimiz var. Bu məsələnin humanitar tərəfi olmaqla yanaşı həm də başlanğıc idi. Adətən vasitəçilik işləri humanitar məsələlərlə başlayır, daha sonra siyasi məsələyə keçid edir. Düşünürəm ki, bu prosesdə Ankara və Bakı məsələnin irəliyə doğru addım atmasına səbəb olacaq yeganə tərəflərdir. Çünki həm Azərbaycan, həm də Türkiyənin Rusiya və Ukrayna ilə yaxşı münasibətləri var. Türkiyə və Azərbaycan iki ölkə arasında vasitəçi olmaq istəyir".

**Analitik qeyd edib ki, bu prosesdə bütün ölkələrin öz marağı var:**

"Türkiyənin əsas marağı və narahatlığı Rusiya və ABŞ-ın Ukrayna üzərindən qarşıdurması Qaradəniz bölgəsində ciddi problemlər yaratmasıdır. Çünki əgər Qaradəniz bölgəsində qarşıdurma yaranarsa, Şərqi Aralıq dənizindəki prosesin burada təkrarlanmasına gətirib çıxara bilər. Şərqi Aralıqda qarşıdurmadan sonra qərb ölkələri - Amerika, Fransa bölgəyə Yunanıstan üzərindən müdaxilə etdi. Türkiyə bunu istəmir və çalışır ki, Ukrayna və Rusiya Türkiyə masasında hər hansısa bir anlaşma əldə etsin.

Azərbaycan tərəfi isə təbii ki, müharibədən sonra regionda güc olaraq önə çıxır. Qarabağ məsələsinin həlli göstərdi ki, bu cür münaqişələrdə irəliləyiş əldə etmək üçün region ölkələrinin iştirakı daha çox səmərə verir. Bu baxımdan Azərbaycan və Türkiyə bu prosesdə aktiv rol oynayırlar".

*Siyasi şərhçi Bakı və Ankaranın vasitəçilik etməsinin bir başqa səbəbini də açıqlayıb:*

"Bakı və Ankaranın burada aktiv rol oynamasının bir başqa səbəbi də Türk Dövlətləri Təşkilatının gələcəyi ilə bağlıdır. Çünki bu təşkilat ciddi şəkildə inkişaf edir. Burada türkdilli ölkələrlə yanaşı, digər türkdilli olmayan ölkələrin də məşvərətçi statusda təmsilçiliyi var. Ukraynanın da bu təşkilata üzv olmaq istəyi ortadadır. Şərqi Avropadan Mərkəzi Asiyaya qədər uzanan coğrafiyada Azərbaycan və Türkiyə yeni bir regional güc kimi ortaya çıxır. Bu prosesin əslində əsas hədəfi də məhz elə bu coğrafiyada Türk Dövlətləri Təşkilatının çətiri altında yeni bir güc formalaşdırmaqdır".

*A.Nərimanlı Rusiyanın Türkiyənin prosesdə vasitəçilik etməsindəki marağını açıqlayıb:*

"Moskva təbii ki, bu prosesdə Türk Dövlətləri Təşkilatının daha da güclənməsinin marağında olmaya bilər. Lakin Qarabağ məsələsi, ümumiyyətlə, Rusiya-ABŞ qarşıdurması göstərdi ki, Kreml bir çox regionu qərblə paylaşmaqdansa, daha anlaşa biləcəyi Türkiyə ilə paylaşmaqda maraqlıdır. Biz bunu Cənubi Qafqazda gördük. Bu baxımdan Ərdoğanın Kiyevə səfərinin və vasitəçi olmaq istəyinin perspektivi var. Çünki belə olan halda Ukrayna üzərində Qərbin təsiri azalır".

**Bu məsələdə Ukraynaya gələcək xeyirlərdən danışan siyasi ekspert diqqətə çatdırıb ki, Zelenski hakimiyyəti bu yolla bir sıra maraqlarına çata bilər:**

"Digər tərəfdən, bu, Ukraynanın da marağındadır. Çünki Ukrayna anlayır ki, Qərb-Rusiya masasında faktiki olaraq onun heç bir qazancı yoxdur. Alternativ masanın yaranması Ukrayna üçün müəyyən bir irəliləyiş vəd edə bilər. Təbii ki, söhbət burada Krımın dərhal Ukraynaya qaytarılmasından və yaxud münaqişənin dərhal həll olunmasından getmir. Amma ən azından bütün ölkələrdə hakimiyyətlər müəyyən bir hədəfə nail olmaq istəyir. Zelenski hakimiyyəti də çalışır ki, alternativ masa ilə münaqişənin həllində, ən azından Donbass və Luqanskda irəliləyiş əldə etdi. O cümlədən, Zelenski bu yolla əsirlərin qaytarılmasına nail ola bilər. İllərdir, davam edən "Normand formatı" var ki, burada heç bir irəliləyiş yoxdur. "Normand formatı" Amerikanı bölgəyə buraxmamaq üçün Avropa və Rusiyanın bir növ bu məsələni monopoliyada saxlamasına gətirib çıxarıb. Nəticə olaraq, Ukrayna heç nə qazanmır. Əslində son qarşıdurmada ciddi iqtisadi itkiyə gətirib çıxardı. Yəni Ukrayna burada qurban rolunda olur. Lakin Türkiyənin qura biləcəyi masada Ukrayna üçün yeni bir fürsət yarana bilər.

Fikrimcə, Qarabağ münaqişəsinin həllindən sonra Rusiyada belə bir fikir formalaşır ki, post-sovet məkanındakı münaqişələri region ölkələri ilə müzakirə edib həll etmək daha sərfəlidir. Çünki bilirik ki, Rusiya Ukrayna ilə olan münaqişələrə nəzarət etsə belə, onun üçün əlavə təzyiq dalğası yaradır. Düşünürəm ki, Azərbaycan və Türkiyənin quracağı masada Rusiya və Ukrayna məsələsinin müəyyən irəliləyiş etməsi üçün perspektiv var. Ərdoğanın Kiyevə səfəri və yaxın günlərdə baş tutacaq V.Putinin Ankaraya səfəri göstərir ki, artıq bununla bağlı irəliləyiş var".

**Çimnaz Şahlar**



# Kiçik səhlənkarlıq böyük faciə gətirir

## Sakinlər şübhəli əşyalardan, silah-sursat qalıqlarından uzaq durmalıdır

**İsmayıl Qocayev**

**Vətən müharibəsi dövründə ermənilərin Yevlax rayonuna atdığı kasetli bombanın partlamasından sonra bölgədə genişmiqyaslı axtarışa başlanılıb. Partlayışın baş verdiyi ərazidə 17 ədəd kasetli bomba aşkarlanıb. Xatırladaq ki, fevralın 1-də Yevlax rayonunun Aran qəsəbəsində, "Şirinbulaq" adlanan qış otlaq sahəsində 26 yaşlı İsmayıl Mikayılov qoyun otararkən orada gördüyü naməlum əşyaya toxunub.**

O, həmin əşyanın üzərinə çıxıb və qəfildən partlayış baş verib. İ.Mikayılov aldığı xəsarətlərdən dünyasını dəyişib. Ölümlə nəticələnən olaydan sonra Azərbaycan Minatəmizləmə Agentliyi mina və partlayıcı qurğuların təhlükəsi ilə bağlı vətəndaşlara yenidən xəbərdarlıq edib. Bildirilib ki, kənd sakinləri, o cümlədən fərdi sahibkarlıq, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olanlar arasında bu istiqamətdə maarifləndirmə təbliğatı aparılır. ANAMA vətəndaşlara müraciət edərək təyinatı məlum olmayan əşyalara toxunmamağa çağırıb. Şübhəli və naməlum əşyalara rast gəldikdə müvafiq qurumlara məlumat verilməsi xahiş olunub.

> "Müharibənin başa çatmasına baxmayaraq, partlamamış silah-sursatların qalıqları vətəndaşlarımız üçün ciddi təhlükə mənbəyidir"

**"Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları" Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov "Şərq"ə açıqlamasında bildirib ki, Vətən müharibəsində Ermənistan ordusu Azərbaycandakı bir sıra yaşayış məntəqələrini istifadəsi beynəlxalq hüquqla qadağan edilmiş raket və bombaların hədəfinə çevirib.** Polkovnik əlavə edib ki, müharibə gedərkən ərazilərimizə xeyli kasetli bombalar atılıb: "Müharibənin başa çatmasına baxmayaraq, partlamamış silah-sursatların qalıqları vətəndaşlarımız üçün ciddi təhlükə mənbəyidir. Kasetli bombalar isə daha ciddi təhlükədir. Savaş bitəndən dərhal sonra müvafiq qurumlar işğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesinə başlayıb. Proses sürətlə davam etməkdədir. Bununla yanaşı, düşmənin raket zərbələrinə məruz qalan şəhərlərimizdəki partlamamış silah-sursatın müəyyən edilməsi və zərərsizləşdirilməsi həyata keçirilir. ANAMA-nın, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin əməyi danılmazdır. Üç qurumun birgə səyi nəticəsində bugünə qədər minlərlə mina və partlamamış sursat müəyyən edilərək zərərsizləşdirilib, vətəndaşlarımızın təhlükəsizliyi təmin olunub. Təbii ki, bu məsələdə insanlarımız da maksimum məsuliyyətli və ehtiyatlı davranmalıdır. Xüsusən işğaldan azad edilmiş və raket zərbələrinə məruz qalmış bölgələrdə mümkün qədər ayıq-sayıq olmalıyıq. Sakinlər şübhəli əşyalardan, silah-sursat qalıqlarından uzaq durmalı, FHN-ə, hüquq-mühafizə orqanlarına məlumat verməlidirlər. Unutmayaq ki, kiçik səhlənkarlıq böyük faciəyə səbəb ola bilər".

# "İnsanlar pensiya yaşına çata bilmirlər"

## Vahid Əhmədov: "Cəmiyyətdən gələn çağırışlar, tələblər nəzərə alınaraq pensiya yaşı azaldılmalıdır"



**İqtisadçı millət vəkili Vahid Əhmədov "Şərq"ə müsahibə verib. Parlamentari ilə çörəyin və yanacağın qiymətinin bahalaşması, kommunal xidmətlərin qiymətinin yüksəlməsi, uşaq pulu, pensiya yaşı və digər mövzular ətrafında söhbət apardıq.**

Müsahibəni təqdim edirik:

**- Azərbaycanda çörəyin bahalaşmasını dünya bazarındakı qiymətlərlə izah edirlər. Çörəkdən sonra, demək olar ki, digər un məmulatlarının da qiyməti yüksəldi...**

- Yanvar ayının 1-dən kisəsi 26 manat olan unun qiyməti 36 manata qalxdı. 38-40 manata satdıqlarına görə, çörəyin qiyməti yüksəlməli idi. Azərbaycan özünü taxıl buğdası ilə təmin edə bilmir. Buğda istehsal etmək üçün torpaq sahələrimiz yoxdur. İşğaldan azad olunan ərazilərdə taxıl yetişdirib, istehsal etmək mümkündür. Taxıl idxal etməyə məcburuq. Təkcə Rusiyadan taxıl idxal etdiyimiz üçün rüsumu artırırlar. İnflyasiyalar, qiymət artımı bununla əlaqədardır. Məqsəd kənd təsərrüfatına diqqəti artırmaq, subsidiyalar vermək, fermerləri lazım olan vəsaitlə təmin edib ölkənin taxıl istehsalını intensivləşdirməkdir. Gərək, Azərbaycan özünü 75-80 faiz ərzaqla təmin etməyi bacarsın. Eyni zamanda çörəyin satışında süni qiymət artımı müşahidə edilir, çəkisini də azaldırlar. Azərbaycan hökuməti geniş iclas keçirdi. Baş nazirin rəhbərliyi altında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti sözügedən işlə ciddi məşğuldur, yoxlamalar aparır. Sahibkarlar bunları nəzərə alaraq çörəyin qiymətində artım etməməlidirlər. Bu bizim əhalidir, elə ailə var ki, gündə 6-7 çörək alır.

**- Bu il əmək haqları, pensiya və təqaüdlər də artırıldı, məlum artım ölkədəki bahalaşmanı kompensasiya edə bilirmi?**

- Ötən ilin sonu Prezident fərmanlar verdi. Pensiya və təqaüdlər 20 faizdən 40 faizə qədər, o cümlədən dövlət büdcəsindən maliyyələşən təşkilatların vəsaitləri də artırıldı. Bahalaşmanın qarşısını almağa görə belə addımlar atılır. Lakin kifayət deyil. İnflyasiyanın 4-6 faizdə qorunub saxlanılmasına çalışmaq lazımdır. Həmçinin manat dəyərdən düşməməlidir.

**- Manatın dəyərinə toxundunuz. Yeri gəlmişkən milli valyutamıza təyziqlər varmı?**

- Belə hadisə baş verməyəcək. Çünki Mərkəzi Bankın tədavül balansı və s. göstərir ki, manata qarşı ciddi təhdidlər yoxdur.

**- İşğaldan azad olunan ərazilərdə taxıl yetişdirib, istehsal etməyin mümkünlüyünü qeyd etdiniz. Bu torpaqları əkib-becərməklə istehlakçı ölkədən istehsalçı ölkəyə çevrilə bilərikmi?**

- Ermənistan 30 il işğal müddətində həmin torpaqlardan taxıl məhsulu əldə edib. 250-300 milyon tona yaxın taxıl istehsalına nail olublar. Cənab prezident də taxıl ehtiyatlarının 60 faizinin həmin ərazilərdən götürüldüyünü qeyd edib. İndi o ərazilərimizi işğaldan azad etmişik. Yəqin taxıl, pambıq, üzüm və s. əkiləcək. Əsas diqqəti taxıla ayırmaq lazımdır. Çünki dünyada ərzaq qıtlığı var. Çin kimi böyük dövlət dünya ehtiyatının düyü, qarğıdalı, buğda kimi məhsulların 60 faizini özünə saxlayıb. Dövlətlər ehtiyatlar barədə fikirləşməlidirlər. Prezident 1 ay əvvəl Taxıl Fondu Dövlət Ehtiyatları Agentliyinin yaradılmasına dair sərəncam verdi, işlər gedir. Amma dövlətin kifayət qədər ehtiyatı olmalıdır.

> "Turizmlə bağlı Azərbaycanda qiymətlər yüksəkdir, keyfiyyət isə çox aşağıdır"

**- Azərbaycanda pensiya yaşının yüksək olması da əhalidə narazılıq yaradıb. Sizcə, yaş həddi azaldılmalıdırmı?**

- Elə ölkələr var ki, pensiya yaşı Azərbaycandakından yüksəkdir və yaxud əksinədir. Pensiya yaşının artırılmasını düzgün addım hesab etmirəm. Son illər baş verən hadisələr, xüsusilə pandemiya insan tələfatına səbəb oldu. Faktiki olaraq, insanlar pensiya yaşına çata bilmirlər. Pensiya yaşının azaldılması istiqamətində çağırışlar, tələblər var. Gedən proseslər pensiya yaşının azaldılmasının vacibliyini göstərir.

**- Ölkəmizdəki turistik məkanlarda, eləcə də otellərdə qiymətləri baha olduğuna görə əhalimiz dincəlmək üçün xaricə üz tutur. Xaricdən gələn turistlər də bahalaşmadan narazı qalırlar...**

- Bu yaxınlarda turizm haqqında qanun qəbul edildi. Qanunda ən çox sual doğuran məsələ qiymət, xidmətdir. Azərbaycanda qiymətlər yüksəkdir. Xidmətin keyfiyyətində ciddi problemlər var. Bir-iki bölgə istisna olmaq şərtilə, digər bölgələrdə xidmət aşağıdır, lakin qiymətlər yüksəkdir. Bununla əlaqəli müəyyən təkliflər vermişik. Təkliflərin üzərində aidiyyəti iş gedir.

**- Kommunal xidmətlərin bahalaşmasına dair narazılıqların şahidi oluruq. Ucuzlaşma ehtimalı var?**

- Ucuzlaşacağını düşünmürəm. Fikir verin, neftin qiyməti qalxıb, 100 dollara yaxınlaşır. Amma bizdə benzinin qiyməti ucuzlaşmır. Aİ-92, Aİ-95 markalı benzinlərə əlavə dəyər vergisi lazımdır. Kommunal xidmətlərdə də qiymətlərin yaxın zamanlarda ucuzlaşmasını gözləmirəm.

**- Neftin qiymətinin qalxdığını vurğuladınız. Azərbaycan nefti xammal kimi xaricə satır, sonra yenidən emal edilmiş şəkildə alır. Ölkədə benzin istehsal etmirik. Niyə neft emalı zavodunun inşası reallaşmır?**

- Bu məsələni uzun müddət müzakirə etmişik. Müstəqillik dövründə istənilən zavod, fabrik tikib benzini istehsal etmək mümkün idi. Deyirlər, təkmilləşdirmə aparırlar, yaxın zamanlarda istifadəyə veriləcək və s. Çox təəssüf ki, ixrac ölkəsi olduğumuz halda benzini xaricdən idxal edirik.

**Söhbətləşdi: Aygün Tahir**



# Yaz aylarında hücum gözlənilir

## Türkiyənin vasitəçiliyi də münasibətlərin normallaşmasına gətirməyəcək

**"Qərblə Rusiya arasında davam edən siyasi-hərbi böhran Donbassda lokal döyüşlərlə nəticələnək".**

**Bu barədə "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Ukraynanın Donbassa hücumu yaz aylarında mümkündür:** "ABŞ başda olmaqla NATO Ukraynanı müharibəyə hazırlayır. Qərblə aparılan danışıqlar onda nəticə verə bilər ki, ABŞ, yaxud Rusiya geri addım atsin. Rusiyanın tezliklə geri addım atması gözlənilmir. Ötən gün Vladimir Putin çıxışında birmənalı dedi ki, Moskva Ukrayna məsələsində "prinsiplərini" qoruyur. Kremlin məqsədi Şərqi Avropanı öz nüfuz dairəsinə daxil etməkdir. Böyük Britaniya baş nazirinin Ukraynaya səfəri Rusiyanın aqressiyasının müəyyən dərəcədə qarşısını alacaq. Bu həm də rəsmi Londonun yeni dünya nizamında Rusiyanın qarşısına çıxdığını göstərir. Hər halda Rusiya üçün arzuolunmaz prosesdir. Türkiyə Prezidenti Ukrayna və Rusiya arasında təmaslar yarada bilər. Ancaq bu təmaslar Kiyev-Moskva münasibətlərinin normallaşmasına gətirməyəcək".

**İsmayıl**

# "...Evə gedirəm"

## Ürək əməliyyatı keçirən yazıçı Azər Qismət "Şərq"ə danışıb



**Ötən gün səhhəti pisləşən tanınmış jurnalist, yazıçı Azər Qismət Mərkəzi Klinik Xəstəxanasına yerləşdirilib.**

49 yaşlı jurnalist ürəyindən əməliyyat olunub. "Şərq" səhhəti ilə bağlı son durumu öyrənmək üçün yazıçı ilə əlaqə saxlayıb. Yazıçı bildirib ki, əməliyyatı uğurla başa çatıb: "İndi özümü yaxşı hiss edirəm. Böyük təhlükə aradan qalxdı. Hazırda xəstəxanadan evə gedirəm. Maraqlanan hər kəsə təşəkkür edirəm".

**Günəş Mərd**

# Ermənilər ayılıblar

## Sorğunun nəticələri göstərir ki, erməni cəmiyyəti Rusiyanı özlərinə təhlükə hesab edirlər



**Rusiya Ermənistanın təhlükəsizliyinə ən çox təhdid törədən ölkələrin reytinqində 3-cü pillədə qərarlaşıb. APA-nın "gazeta.ru"ya istinadən verdiyi xəbərə görə, bu barədə IRI İnstitutunun Ermənistanda apardığı sorğuların nəticələri göstərir.**

Respondentlərin fikrincə, Ermənistana ən böyük təhdidi Türkiyə (88 faiz) və Azərbaycan (81 faiz) törədir. Rəyi soruşulanların 15 faizi Rusiyanı siyasi, 17 faizi isə iqtisadi baxımdan təhlükə hesab edir.

Türkiyə üçün bu göstərici müvafiq olaraq 90 faiz və 68 faiz, Azərbaycan üçün isə 77 faiz və 52 faiz olub.

Bununla belə, 57 faiz Ermənistan vətəndaşı Rusiyanı əsas siyasi müttəfiq adlandırıb. Növbəti yerlərdə Fransa (50 faiz) və ABŞ (38 faiz) qərarlaşıb.

Respondentlərin 61 faiz Rusiyanı, 40 faiz İranı və 29 faiz isə Çini əsas iqtisadi tərəfdaş sayır.

Ermənistanın himayədarı olaraq bilinən Rusiyanın cəmiyyət tərəfindən təhdid hesab olunması diqqət çəkən məqamdır.

**Bu barədə fikirlərini "Şərq"lə bölüşən politoloq Natiq Miri bildirib ki, bu qismən Paşinyanın yeritdiyi siyasətin nəticəsi hesab oluna bilər:**

"Ancaq onun hakimiyyəti dövründə rəhbərlik etdiyi hökumətin heç bir uğurlu fəaliyyəti yoxdur. Buna görə də erməni ictimaiyyətinə ciddi şəkildə təsir edə bilməz. Ötən müddət ərzində xalq Kremlin çətiri altında olmağın Ermənistana təhlükəsizlik vəd etmədiyinin şahidi olub. Son 44 günlük müharibədə də onlar gördü ki, Rusiya öz "müttəfiq"lərini çox rahat şəkildə sata bilər. Bu nəticələrin səbəbi erməni xalqının uzunmüddətli təcrübəsindən yaranan təəssüratdır.

Bu günə qədər Rusiyanın himayə etdiyi hakimiyyətlər, xüsusilə də "Qarabağ klanı" Ermənistana müsbət heç nə qazandırmayıb. Əksinə, yalnız bəlalar gətirib. Nəticədə bu gün onlar demoqrafik faciə qarşısındadır. Ermənistan sürətlə boşalır, qaçan-qaçanadır. Çünki insanlar bu ölkənin gələcəyini yaxşı görmürlər. Bunun əsas səbəbi Moskvanın dəstəklədiyi Sarkisyan və Koçaryan kimi başkəsən, terrorçu ünsürlərdir. İndi nə bu şəxslərə, nə onları dəstəkləyən Rusiyaya inamları qalıb. Hətta bu ölkəni özlərinə ciddi təhlükə hesab edirlər. Çünki Rusiyanın Gümrüdə hərbi bazası yerləşir.

Artıq Ermənistan ictimaiyyəti ölkənin müsbət perspektivinin Rusiya ilə bağlı olduğunu düşünmür. Onlar inkişafı Qərbə inteqrasiya və qonşu ölkələrlə münasibətlərin tənzimlənməsində görür".

**Sənan İsmayıl**



**Rusiya Prezidenti Vladimir Putin fevral ayının ikinci yarısında Türkiyəyə səfər edə bilər. Bu barədə "A Haber" telekanalı məlumat verib. Məlumatda deyilir ki, Pekin Olimpiadasının açılışından sonra tarixi dəqiqləşəcək səfər fevralın ikinci yarısına təsadüf edəcək.**

# Ankara münaqişənin qarşısını almağa çalışır

## Türkiyə Rusiya ilə NATO-nun bölgədəki təmsilçisi kimi söhbət edəcək

Daha əvvəl Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiya Prezidentinin Pekin Olimpiadasının açılışında iştirak etdikdən sonra Türkiyəyə səfər edəcəyini açıqlayıb. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov isə epidemioloji vəziyyət və qrafiki imkan verdikdə V.Putinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifindən yararlanaraq, bu ölkəyə səfər edəcəyini bildirib.

**Millət vəkili Asim Mollazadə Kreml rəhbərinin Türkiyəyə gözlənilən səfərindən "Şərq"ə danışarkən bildirib ki, hazırda tərəflər arasında onların maraqlarının toqquşduğu bir sıra problemli regionlar var:**

"İlk növbədə söhbət Orta Şərqdən, Suriyadan gedir. Türkiyənin əsas istəyi öz ətrafında sabitliyin qorunmasıdır.

İndi rəsmi Ankara Rusiya-Ukrayna münasibətlərinin yaxşılaşması istiqamətində öz vasitəçiliyini təklif edir və bununla da hansısa münaqişələrin qarşısını almağa çalışır". Millət vəkili tərəflərin Cənubi Qafqazda stabilliyin qorunması, üçtərəfli bəyannamənin icrası, kommunikasiyaların açılması məsələlərini də müzakirə edəcəklərini söyləyib. Onun sözlərinə görə, Türkiyə Rusiya ilə NATO-nun bölgədəki təmsilçisi kimi söhbət edəcək: "Rəsmi Ankara NATO ilə Rusiya arasındakı qarşıdurmanın səngiməsində maraqlıdır. Tərəflərin görüşündə də bu istiqamətdə danışıqlar olacaq. Düşünürəm ki, səfər ikitərəfli münasibətlərə müsbət təsir göstərəcək".

**Günəş Mərd**



# Üçəm və dördəmlərin vəziyyəti yaxşılaşır

## Kliniki Tibbi Mərkəzə yerləşdirilmiş anaların da səhhəti normaldır

**"COVID-19"a yoluxmuş və vəziyyətləri ağırlaşdığı üçün Kliniki Tibbi Mərkəzə yerləşdirilmiş iki hamilə qadından biri üçəm, digəri isə dördəm dünyaya gətirib.**

Yanvarın 26-da Mərkəzə gətirilən 44 yaşlı qadın reanimasiyaya yerləşdirilib. Onun dünyaya gətirdiyi üçəmlərin ikisinin vəziyyətinin stabil, birinin isə ağır olaraq qaldığı deyilib.

31 həftəlik 22 yaşlı hamilə qadın isə fevral ayının 1-də Mərkəzə yerləşdirilib. Onun da vəziyyəti orta-ağır olduğu üçün əməliyyata alınıb və dördəmləri dünyaya gəlib. Körpələrdən ikisinin vəziyyətinin stabil, ikisinin isə ağır olduğu bildirilib.

**"Şərq" həmin pasiyentlərin vəziyyətini öyrənmək üçün Kliniki Tibbi Mərkəzin mətbuat katibi Elnur Hidayətoğlu ilə əlaqə saxlayıb. O bildirib ki, reanimasiyada olan ananın vəziyyəti stabilləşir:**

"Digər ananın da vəziyyəti yaxşıdır. Körpələrin səhhətində də hər hansı problem yoxdur, əksinə, getdikcə yaxşılaşırlar".

*Qeyd edək ki, üçəmlərin hər biri qızdır. Çəkiləri 1 200, 1 180, 755 qram olub. Hazırda hər üçü küvezdədir.*

*Dördəmlərin isə üçü qız, biri oğlandır. Onların çəkiləri də 1 340, 1 440, 1 250 və 1 300 qram olub.*

**Sənan İsmayıl**

# "Qarabağa kimin gəlib-getdiyini erməni mətbuatından öyrənirik"

## Zəlimxan Məmmədli: "Rus və erməni quldurlarının qanunsuz hərəkətlərini sadəcə özfəaliyyət kimi dəyərləndirmək olmaz"

**Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya hərbçiləri yenə öz ampluasındadır.**

Sözdə "sülhməramlı" obrazında Azərbaycan torpaqlarına gələn kontingent, bir ildən artıq müddətdə nəinki etimadı doğrultdu, əksinə, çoxsaylı addımlarla ictimaiyyətin hiddətini daha da artırdı. Minsk qrupu həmsədrlərinin 30 il ərzində "barış" libasına bürünərək həyata keçirdikləri fırıldaqlar eyniylə rus "sülhməramlıları" tərəfindən təkrarlanmaqdadır. Onların əksər davranışı Azərbaycan ictimaiyyətində narazılıq və narahatlıq yaradır.

"Sülhməramlı"ların sadəcə Qarabağa qanunsuz gediş-gəlişə imkan verməsi, erməni separatçılarına qol-qanad açması deyil, həm də torpaqlarımızda uzunmüddətli perioda hesablanmış tikililər inşa etməsi, rahatlıqları üçün infrastruktur qurmaları haqlı olaraq təşviş və etiraza rəvac verir. Ötən gün mediada yayılan görüntülərdən məlum oldu ki, rus sülhməramlıları ərazidən keçən Azərbaycan yük maşınlarının yoxlanışını separatçıların "polis"ləri ilə birlikdə həyata həyata keçirirlər. Ekspertlərin fikrincə, yoxlama prosesinə separatçıların cəlb olunması Azərbaycanın suveren hüquqlarını təhdid etməkdir.



*"Bilmək istəyirik ki, Xankəndidə, Xocalıda, Ağdərədə bayrağımız nə vaxt dalğalanacaq?"*

**Ciddi narazılığa səbəb olan hadisəni "Şərq"ə dəyərləndirən "Borçalı" İctimai Birliyinin sədri, siyasi şərhçi Zəlimxan Məmmədli deyib ki, Rusiya "sülhməramlıları" ermənilərin "Artsax" adlandırdığı ərazilərdə "müstəqil dövlət aparatı"nın qurulmasının legitimləşməsi ilə məşğuldur. Birlik rəhbəri qeyd edib ki, faktiki olaraq biz Rusiya "sülhməramlılarının nəzarətində olan Xankəndi və ətraf bölgələrə buraxılmırıq, suveren hüquqlarımız pozulur:** "Ermənilərin Xankəndinə sərbəst gediş-gəlişi üçün isə xüsusi Laçın dəhlizi var. Ancaq həmin dəhlizə Azərbaycan tərəfi nəzarət edə bilmir. Qarabağa kimin gəlib-getdiyini erməni mətbuatından öyrənirik. Rusiya "sülhməramlıları" ermənilər qarşısında xüsusi öhdəlik götürüb. Bu öhdəlik Qarabağda ermənilər üçün "dövlət" qurmaq və Kremlin tarixi missiyasını yerinə yetirməkdir. Erməni separatçıların "sülhməramlı"larla birgə Azərbaycan maşınlarını yoxlamasını kapmaniyanın tərkib elementidir. Rus və erməni quldurlarının qanunsuz hərəkətlərini sadəcə özfəaliyyət kimi dəyərləndirmək olmaz. Bu, ciddi siyasi sistemdir və başında Moskva durur. Əlbəttə, bu, mənim fikrimdir, təhlilimdir. Əgər elə deyilsə, təkzib etsinlər. Amma bilmək istəyirik ki, Xankəndidə, Xocalıda, Ağdərədə bayrağımız nə vaxt dalğalanacaq?".

**İsmayıl Qocayev**



**"İki həftə öncə Ermənistan Rusiya vasitəsilə Azərbaycana delimitasiya prosesinin başlaması ilə bağlı yeni təkliflərini təqdim edib".**

# Qarşı tərəfdən konkret addımlar gözləyirik

## Bakının sərhədlərin müəyyənləşməsi ilə bağlı mövqeyi aydındır

Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Macarıstanın Xarici işlər və ticarət naziri Peter Siyarto ilə birgə brifinqdə deyib.

Nazir bildirib ki, təkliflərin detallarını açıqlamır.

"Bu təkliflər prosesə başlamaq üçün ilkin şərtlərdir. Azərbaycan tərəfi öz mövqeyini bir daha qarşı tərəfə çatdırıb. Bizim təklifimiz budur ki, heç bir qeyd-şərt olmasın", - deyə Ceyhun Bayramov əlavə edib.

**Nazirin açıqlamasını "Şərq"ə şərh edən millət vəkili Arzu Nağıyev Ermənistanın prosesi uzatmaq üçün əlindən gələni etdiyini bildirib:**

"Delimitasiya və demarkasiya haqqında məsələlər həm Soçi, həm də Brüssel görüşlərində müzakirə olunub. Buna əsasən, müəyyən proseslər başlamalıdır. İkitərəfli komissiyaların mövcudluğu təmin olunmalıdır. Onların yaradılması üçün müvafiq addımlar atılmalı idi. Lakin Ermənistanın prezidentinin istefa verməsi, daxildə baş verən proseslər, yenidən qondarma quruma maliyyə yardımının ayrılması və digər proseslər göstərdi ki, ümumiyyətlə, Ermənistanda daxili və xarici siyasətə nəzarət edə bilmirlər".

*Parlamentari qeyd edib ki, Ermənistan şərt dilində danışa bilməz:*

"Biz diktə edən tərəf kimi, delimitasiya, demarkasiya, sülh sazişi, kommunikasiyaların açılması, Zəngəzur dəhlizi, dəmiryolu və s. bütün nə lazımdırsa, 10 Noyabr və digər müqavilələrə uyğun olaraq təkliflərimizi vermişik. İndi onlardan konkret addımlar gözləyirik. Bəli, təklifləri açıqlasınlar, görək, nə istəyirlər? Çünki status məsələsi olmayıb və olmayacaq da! Orada aydın olmayan bir məsələ yoxdur".

**Cəmilə ƏZİM**

# Qərb sürətlə Ukraynanı silahlandırır

## Kreml isə hədə-qorxu ilə Kiyevi çəkindirməyə çalışır

**Rusiya Ukraynanı hədələyib. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Kiyev administrasiyası İraq, Suriya və Liviya... - ABŞ-ın işğal etdiyi digər ölkələrin taleyini xatırlamalıdır:**

"Kin və təkəbbürlə dünyanın hər tərəfinə daxil olaraq ölüm və xaos yayırlar. Kiyev rejiminin idarəedicilərı bu ifrat eybəcərliyin cinayət ortağı olmaq istəsələr belə, bu rolu kuratorların onlara verməyəcəyini anlamalıdırlar. Ukrayna kontekstində Hollivud qaydalarına uyğun lentə alınacaq növbəti filmdə "istehsalat qəzası" termininden istifadə ediləcək".

**Politoloq Rusif Məmmədsoy "Şərq"ə açıqlamasında bildirib ki, Ukrayna ilə Rusiya arasındakı proseslər həqiqətən də ciddi bir gərginliyə səbəb olub:** "Amma hər hansı bir döyüş fazasına keçəcəyini düşünmürəm. Rusiyanın açıqlamaları geri addım atmamaq üçün müəyyən alətlərdən biridir."

**Politoloq qeyd edib ki, NATO qüvvələrinin 1997-ci il sənədinə qayıtması ilə bağlı açıq şəkildə Rusiya təhdid edərək şərtlər irəli sürür:**

"Eyni zamanda keçmiş postsovet məkanına hər hansı bir hərbi kontingent toplamamalıdır. Putinin "siz təsəvvür edin ki, NATO əsgərləri bizim qonşuluğumuzdadır. Biz onlarla döyüşürük" kimi bir açıqlaması olub. Əslində bu, absurddur. Məsələn, Azərbaycan Gürcüstana deyə bilərmi ki, NATO-ya üzv olma? Yaxud da Gürcüstan Azərbaycana deyə bilərmi ki, sən hansısa qoşulmama hərəkatına liderlik etmə? Bu mənada hər hansı dövlətlərə müəyyən şərtlər diktə etmək doğru deyil. Qərbin də strateji səhvi var idi ki, Rusiyanın bu qədər əl-qol açmasına imkan verib. İndi isə faktiki şəkildə NATO Rusiyanın bu tələblərini geri çevirib. Eyni zamanda Ukrayna dayanmadan silahlanır. Rusiya heç də bu proseslərdən geri addım atmamaq naminə açıqlamalar verib. Kreml fikirləşir ki, müəyyən mərhələdən sonra artıq qərb tərəfi bu məsələləri yaddan çıxaracaq. Rusiyanın yürütdüyü maksimalist siyasət əslində onu tilova salır. Əgər Rusiya geri çəkiləcəksə, bu artıq onun reputasiyasına, V.Putinin şəxsi nüfuzuna çox ciddi zərər verəcək. Qərb tərəfi də anlayacaq ki, Putin qarşısında real qüvvə olduqda hesablaşır. Əslində Rusiya üçün bunun bir sınaq olduğunu düşünsək, sona kimi davam etsə, onun özü üçün də itkisiz olmayacaq. Ümumiyyətlə, rəsmi Moskva atacağı hər hansı addımdan geri çəkilsə də, yaxud müdaxilə edib, digər əraziləri işğal etsə belə, yenə də məğlub tərəf olacaq. Çünki Boris Consonun da Kiyevə bir səfəri baş tutub. Orada da bir sıra açıqlamalar olub. O qeyd edib ki, əgər Rusiya hərbi müdaxilə etsə, onda rus əsgərlərinin anaları oğullarının tabutlarını gözləsinlər. Bu, çox ciddi bir açıqlamadır. Rusiyadakı cəmiyyətə də bir mesajdır. Daxildəki qüvvələri alovlandırmağa çalışır. Böyük Britaniyanın Ukraynaya verdiyi silahlardan birinin alternativi heç Rusiya hərbi arsenalında da yoxdur. Bu aspektdən də Rusiya üçün acı nəticələr olacaq".

**Politoloq Turab Rzayev isə bildirib ki, Rusiya Ukraynanın qorxaraq geri çəkiləcəyini və onun şərtini qəbul edəcəyini gözləyir:**

"Zelenski isə Rusiyanın heç bir şəhərində görüşə hələ ki razılıq verməyib. Biz Britaniya Baş nazirinin Kiyevə açıq dəstəyini gördük. Nazir çıxışlarında Krımın adını çəkir. Bununla təkcə Donbass deyil, Krımın da Ukraynaya qaytarılmalı olduğunu deyir. Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniya, Kanadanın Kiyevə xüsusi maliyyə ayırdığını görürük. Növbəti il üçün Ukraynanın büdcəsi 40 milyardan çox təsdiq olunub. 12 milyardı hərbi büdcə üçündür. Bu artıq getdikcə Rusiya ilə arasındakı hərbi disbalansı azaltmağa kömək edir. Eyni zamanda Böyük Britaniya bir neçə milyardlıq da yardım edib. Onun böyük bir hissəsi yenə hərb və ordunun təchizatına ayrılıb. ABŞ, Böyük Britaniya və rəsmi Ottava sürətlə Ukraynanı silahlandırmağa davam edir. Rəsmi Kiyevin güclənməsi gələcəkdə Rusiyaya təhlükə yarada bilər. Ona görə də digər variantları önə sürərək İraqın, Suriyanın, Liviyanın taleyini xatırladır. Ukraynanın bölünüb, zərər görəcəyini diqqətə çatdırır. Kreml artıq sülh və ya barışıq etməklə Ukraynanı nəyəsə razı salmağın mümkün olmayacağını anlayır. Ona görə də yenidən hərbi ritorikaya keçir. Təzyiq, hədə-qorxu ilə Zelenskini məcbur edərək hər hansı bir ateşkəs və ya müvəqqəti barışıq imzasına nail olmağa çalışır. Mülayim ritorika üçün çox gecdir. Rusiyanın yenidən sərt şəkildə Zelenskini sülhə və ya danışıqlara məcbur edəcəyini düşünürəm".



**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi




# Pandemiyaya qalib gəlməyin bir yolu var

### Dövlət və cəmiyyət əl-ələ verib birgə çalışmalı, məsuliyyətli olmalıdır

**Ölkədə "Omicron" ştammına yoluxma sayında artım davam edir. Ötən günün statistikasında sutkalıq yoluxma sayının 6 mini ötdüyü bildirilirdi. Azərbaycan dövləti vətəndaşların sağlamlığına yaranan təhlükəni minimuma endirmək üçün 2 il əvvəl olduğu kimi yenə də zəruri addımları atır. Azərbaycan ictimaiyyəti pandemiya şəraitində hökumətin həyata keçirdiyi qabaqlayıcı tədbirlərin şahidi oldu.**

Yoluxma, xəstə və ölüm sayından asılı olaraq karantin qaydalarının sərtləşdirildiyi zamanlar da oldu, yumşaldıldığı zamanlar da. Ən əsası isə vətəndaşlara müraciətdə karantin qaydalarına əməl etməklə məsuliyyətli davranmaq tövsiyə edilirdi. Dövlət pandemiyanın ağırlığını öz üzərinə götürmüşdü, lakin vətəndaşlardan da dövlətə dəstək olmaq tələb edilirdi. Yoluxma sayının artması, insan itkisi, resurslar itkisi deməkdir. Hər birimiz yoluxmaya şərait yaratmamaqla həm dövlətə dəstək vermiş oluruq, həm də sağlamlığımızın qayğısına qalırıq. Lakin pandemiyanın davam etdiyi dövrdə bəzən ictimai məsuliyyətsizliklər də müşahidə edilirdi. Karantin qaydalarını pozan ictimai iaşə müəssisələri, idarə və təşkilatlar qanun çərçivəsində cəzalanırdı. Oxşar hallar indi də baş verir. Baxmayaraq ki, artıq 3-cü ildir pandemiya şəraitindəyik. Hazırda isə "Covid-19"-un daha sürətli yoluxma variantı müşahidə edilir. Bununla belə, yenə də karantin qaydalarının pozulması halları baş verir. Test cavabları müsbət çıxmış və evdə müalicə təyin edilmiş ayrı-ayrı şəxslərin qaydaları pozması barədə məlumatlar yayılır. Bu günlərdə Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri müvafiq tədbirlərlə aktiv koronavirus xəstəsi ictimai yerdə aşkarlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupunun məlumatına görə, rayon sakinlərindən birinin COVID-19 testinin nəticəsi pozitiv olduğu üçün ona ev şəraitində müalicə təyin edilib, sanitar-karantin qaydaları izah olunub. Lakin o, qaydaları pozaraq yaşadığı ünvanı tərk edib və virusun yayılmasına şərait yaradıb. Həmin şəxs polis əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıb və müalicə aldığı ünvana geri qaytarılıb. Sabirabad rayonunda da yaşadığı ünvanı tərk edən COVID-19 xəstəsi polis əməkdaşları tərəfindən saxlanılıb. Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində koronavirus testi müsbət çıxmış şəxslərin yaşadığı ünvanı tərk edib-etməməsi yoxlanılarkən bu fakt aşkarlanıb. Həmin şəxsin karantin qaydalarına zidd davranaraq yaşadığı ünvanı tərk etdiyi müəyyən edilib. Şəxsin qanunazidd hərəkətinin qarşısı alınıb və tibbi prosedurlar gözlənilməklə yaşadığı ünvana geri qaytarılıb. Digər tədbirlər də həyata keçirilir.

Zaqatalada polis əməkdaşları tərəfindən karantin rejimi ilə əlaqədar rayon ərazisində gücləndirilmiş nəzarət-profilaktik tədbirlər həyata keçirilir. DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan "Şərq"ə verilən məlumata görə, keçirilən yoxlamalar zamanı iri marketlərdə, eləcə də digər qapalı obyektlərdə bəzi alıcı və satıcıların tibbi maskadan istifadə etmədikləri aşkarlanıb. Onlarla maarifləndirici söhbətlər aparılıb və barələrində inzibati tənbeh tədbirləri görülüb. Sanitar-gigiyenik normaların pozulmasına şərait yaradan sahibkarlara ciddi xəbərdarlıq edilib. Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən isə ictimai nəqliyyatda tibbi maskadan istifadə etməyən sərnişin və sürücülər müəyyən olunub. Tələblərə əməl etməyin vacibliyi onların diqqətinə çatdırılıb. Həmçinin, taksilərdə şəffaf arakəsmələr quraşdırmayan, COVID-19 pasportu olmadan sərnişindaşıma fəaliyyəti ilə məşğul olan sürücülər aşkarlanaraq barələrində qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb. Ümumilikdə keçirilən reydlər zamanı karantin rejiminin qaydalarına riayət etməyən 18 nəfər inzibati məsuliyyətə cəlb olunub.

İctimai yerlərdə aşkarlanan aktiv koronavirus xəstələri karantin qaydalarını pozmalarını bəzən başqa çıxış yolunun olmadığı ilə izah edirlər. Xəstələr bildirir ki, onlara evdə müalicə təyin olunsa da, dərman preparatlarını, həmçinin ərzaq, gündəlik tələbat mallarını almaq üçün evdən çıxmaq məcburiyyətində qalırlar. Bir tərəfdən baxanda, bu insanları çox qınamaq da olmur. Tək yaşayan, yaxud doğmaları, ailə üzvləri başqa şəhərdə, bölgədə yaşayan insanlar, həqiqətən də dərman, ya da gündəlik ərzaq ehtiyaclarını ödəmək üçün nə etməlidir? Qeyd edək ki, pandemiyanın başlanğıcında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən köməksiz, ahıl insanlara yardım edilirdi, tələbatları ödənirdi. Könüllü dəstələr də yaradılmışdı və onlar yardıma ehtiyacı olanların köməyinə çatırdı. Etiraf edək ki, sadəcə darıxdığı, uzun müddət mənzildə qapalı qalmaq istəməyib, yaxud sırf məsuliyyətsizlikdən karantin qaydalarını pozaraq yaşadığı ünvanı tərk edənlər də var. Amma ehtiyac yarandığı üçün evdən çıxanlar da az deyil. Nə dövlətə, nə də vətəndaşa ziyan dəyməsin deyə bu kimi halların qarşısının alınması üçün hansı addımlar atılmalıdır?

***"Yerli-yersiz karantin qaydalarını pozurlar. Lakin yaşadığı ünvanı tərk edən xəstənin bunu hansı səbəbdən etdiyi müəyyənləşməlidir. Əgər onun yardıma ehtiyacı varsa, yerli orqanlar ehtiyacları qarşılamalıdır"***

**Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, test nəticələri müsbət çıxmış vətəndaşlara yaşadığı ünvanı tərk etməmək barədə göstəriş doğrudur. Yoluxmuş insan əgər aptekə, marketə daxil olursa, parkda kiminləsə qarşılaşıb ünsiyyət yaradırsa, bir neçə dəqiqə ərzində daha bir neçə nəfəri yoluxdura bilər. Lakin xəstələri evə qapayırıqsa, onların təminatını da həyata keçirməliyik:**

- Karantin qaydalarına vətəndaşlar əməl etməlidir. Bu, birmənalıdır. Vətəndaş ilk növbədə özü məsuliyyət daşımalıdır, anlamalıdır ki, karantin qaydalarını pozmaqla başqalarını, o cümlədən ailə üzvlərini də təhlükəyə atır. Pandemiyada ən əsas şərt təcriddir. Lakin hər bir insanın gündəlik ehtiyacları var. Xüsusilə xəstələrin dərman preparatlarına ehtiyacı var. Bunu diqqətdən qaçırmamalıyıq ki, evdə xəstəyə kömək edə biləcək, onun bazarlığını edə biləcək insan olmaya da bilər. Bu kimi halları nəzərə alaraq dövlət resursları daha ciddi, əhatəli işləməlidir. Sosial xidmət əməkdaşları ərazilərə təhkim edilməlidir. Xəstənin qeydiyyatda olduğu və ya faktiki yaşadığı ərazi üzrə icra hakimiyyətlərinin müvafiq orqanları, bələdiyyələr bu insanlarla əlaqə saxlamalı, onların ehtiyaclarını öyrənməlidirlər. Əlbəttə, məsuliyyətsiz davranan vətəndaşlar da var. Yerli-yersiz karantin qaydalarını pozurlar. Lakin yaşadığı ünvanı tərk edən xəstənin bunu hansı səbəbdən etdiyi müəyyənləşməlidir. Əgər onun yardıma ehtiyacı varsa, yerli orqanlar ehtiyacları qarşılamalıdır. Bu yolla biz pandemiyaya qalib gələ bilərik.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

## Senari üzərində iş gedir

### Bu il Qarabağla bağlı döyüş filminin istehsalına başlanılacaq



**Bu il Qarabağla bağlı döyüş filminin istehsalına başlanılacaq.**

Bu barədə Mədəniyyət Nazirliyindən bildiriblər.

Qeyd olunub ki, hazırda senari üzərində iş gedir. İstənilən tammetrajlı bədii film layihəsini hazırlamaq müəyyən vaxt tələb edir.

"Əgər bu real faktlar və yaxın tarix haqqında filmdirsə, burada daha ciddi və məsuliyyətli prosesdən söhbət gedir. Hazırda ssenari yazılışı prosesində müharibə ilə bağlı məlumatlar, hekayələr toplanır, emal olunur. Yəni, işin daha mükəmməl olması bir az vaxt tələb edir. Qeyd edək ki, bu il ərzində sözügedən filmin senarisinin hazırlanması, hazırlıq prosesinin aparılması və çəkilişinə başlanılması nəzərdə tutulub.", - deyə əlavə edilib.

## İranda təyyarə qəzaya uğrayıb, 2 nəfər ölüb



**İranın şərqində yerləşən Xorasan Rəzəvi əyalətində təlim təyyarəsinin qəzaya uğraması nəticəsində iki nəfər ölüb.**

"Report" xəbər verir ki, məlumatı İRNA yayıb.

"Yüngül mühərrikli təlim təyyarəsi Xorasan Rəzəvi əyalətinin "Kavyani Kaşmir" hava limanı yaxınlığında qəzaya uğrayıb. Hadisə nəticəsində iki nəfər ölüb", - məlumatda bildirilib.

*Qəzanın səbəbi araşdırılır.*

## Üç ton narkotikin sərhəddən keçirilməsinin qarşısı alınıb




**2021-ci il ərzində 3 ton 57 kiloqram 111 qram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb.**

Bu barədə Dövlət Sərhəd Xidmətində keçirilən müşavirədə qeyd olunub.

Bildirilib ki, həmin müddətdə, həmçinin 131 milyon 52 min 393 manat dəyərində qaçaqmalın dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb, 15 ton 408 kq narkotik xassəli bitki məhv edilib.



## Omikron ağciyərləri zədələmir

### Professor: Yoluxma 80 min olsa da, qorxusu yoxdur

**Azərbaycanda bu günə 30 mindən çox aktiv kovid xəstəsi var. Yoluxma statistikasında hər gün rəqəmlər ildırım sürətilə artdıqca, biz gündəlik rəqəmə daha çox diqqət edib, faktiki xəstə sayına baxmırıq. 30 min aktiv xəstə 7 gün boyunca təcriddə qalır, amma 30 minin qısa müddətdə minlərlə insanı yoluxdurmaq ehtimalı da çoxdur.**

Azərbaycanda yoluxma yaxın günlərdə 20-25 minə çata bilərmi? Bu dəfə də ağciyərlərdə total pnevmoniya, buzlu şüşə ağırlaşması görünürmü? Xəstələrdə Omikron necə keçir? Yoluxma nə zaman səngiyəcək.

**Medicina.az-a açıqlama verən tanınmış pulmonoloq Əlizamin Sadiqov ona müraciət edən xəstələrdə lokal ağciyər zədələnməsi, ağır pnevmoniya görmədiyini bildirdi. Omikron daha çox yuxarı tənəffüs yollarını zədələyir və ağciyərlərə nadir halda enir.**

"Virus nə qədər dərinə enirsə, onun yoluxduruculuq qabiliyyəti azalır. Məsələn, əvvəl klassik kovid və ya Delta burundan keçib 2-3 günə artıq aşağı tənəffüs yollarına düşürdü. Burundan 5-6cı gün test verəndə virus tapılmırdı. Amma indi Omikron daha çox burun-boğaz yollarını tutur və orda da çox qalır. Bu da onun yoluxduruculuq qabiliyyətini artırır. Yoluxmanın bu qədər artmasının digər səbəbi də çox insanların simptomsuz keçirməsidir. İnsanlar bilmir xəstədir, evdən çıxır, işə, dərsə gedir. 1-2 gün sonra bir azca burnu tutulur. Beləcə virus yayılır.

Mən Omikron yayılandan müraciət edən xəstələrdə çox nadir halda ağciyər zədələnməsi gördüm. Əvvəlki qədər 40-60 faiz ağciyər tutulması, buzlu şüşə rast gəlmirəm. Keçmiş dalğalardakı qədər xəstə də yoxdur. İnsanlar evdə qalır, özünü yaxşı hiss etdiyi üçün pulmonoloqlara getmir, sadəcə qrip kimi keçirir. Xəstələr o qədər narahat deyil. Bu əlbəttə ki,bir həkim kimi bizi sevindirir.

Bu ondan irəli gəlir ki, əhalinin çoxunun immun sistemi bu virusla tanışdır, bədən özü müqavimət aparır.

Bundan sonra Omikron, BA.2 Mikron nə gəlirsə gəlsin, orqanizm buna hazırdır.

Ya da vaksinin effektidir, görün nə qədər insan vaksin olunub. Xüsusən Pfizeri tövsiyə edirəm, buster doza, ikinci doza vurdurun.

Yoluxma lap sabah 80 min olsun, onun acı halları olmayacaq.

ÜST dünən anons verdi ki, ölüm halları bəzi ölkələrdə bir qədər artıb. Bunun da səbəbi ölkələrdə vaksinasiyanın zəif olmasıdır. İstər Rusiya, istər Afrika dövlətləri. Bu da xəstələrin ağırlaşmasına səbəb olur. Vaksinasiyanın əhatəliyi bizdə çox yaxşıdır. Ona görə yenə deyirəm, yoluxma nə qədər sürətlə yayılsa da, qorxusu yoxdur. Karantin 2 dəfə azaldılıb. O aktiv xəstə sayı da 1 həftəyə azalacaq.Türkiyədə yoluxma 100 mini keçib, nə baş verdi? Heç bir həyəcan yoxdur. İnsanlar normal həyatını yaşayır.

Bu gün biz Omikronu sanki soyuqdəymə xəstəliyi kimi qarşılayırıq, qəbul edirik. Necə ki, 1918-ci ildə qrip epidemiyası 100 milyon insanı məhv etdi, indi isə qripi adi soyuqdəymə kimi qəbul edirik, eynilə Covid 19 adi respirator infeksiya formasına keçib".

## "Bakıda 5 məktəblə irəliləyişə nail ola bilmərik"

### "Bu layihəni həyata keçirənlərin orta məktəbdən xəbəri yoxdur"



Kamran Əsədov: "İnternetdən nə isə götürüb əzbərləyib gəlirlər ki, məktəbdə bunları tətbiq edək"

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təlimə Dəstək Mərkəzi (TDM) tərəfindən Məktəbin İnkişaf Planının hazırlanmasının ilk mərhələsinə start verilib. İdarədən verilən məlumata görə, Məktəbin İnkişaf Planının hazırlanması istiqamətində TDM-nin metodistləri paytaxtdakı 5 ümumi təhsil müəssisəsində (45, 155, 201, 306 və 310 nömrəli) pedaqoji kollektivlə görüşlər keçirir.**

Görüşlərdə TDM-nin metodistləri məktəblərdəki real vəziyyətlə tanış olmaq üçün dərs müşahidələri aparır, təlim-tərbiyə prosesinin inkişafı istiqamətinə yaxından dəstək göstərmək məqsədilə məktəb kollektivi ilə müzakirələr təşkil edirlər.

Məktəb heyəti ilə birgə Məktəbin İnkişaf Planının hazırlanmasının əsas məqsədi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin inspeksiya nəticələrinə əsasən aşkarlanmış çatışmazlıqların aradan qaldırılmasından ibarətdir.

Məktəbin İnkişaf Planının hazırlanması növbəti mərhələlərdə digər məktəblərdə də davam etdiriləcək.

**Layihə ilə bağlı "Şərq"ə danışan təhsil üzrə ekspert Kamran Əsədovun sözlərinə görə, bu, formal xarakter daşıyır və heç bir nəticə verməyəcək.**

"Azərbaycanda Prezident İlham Əliyevin imzaladığı təhsilin inkişafı üzrə dövlət strategiyası mövcuddur. Həmin strategiyadan irəli gələn planlar, hədəflər və görülməli olan işlər var. Kimlərsə formal xarakter daşıyan müəyyən işlər həyata keçirirsə, bu, qrant layihələrin pulunu mənimsəməkdən başqa bir işə yaramayacaq. Bu gün Azərbaycanda 4432 orta ümumtəhsil məktəbi var və onun 320-si paytaxt Bakının payına düşür. Biz Bakıda 5 məktəblə hər hansı ciddi irəliləyişə nail ola bilmərik.

Hazırda təhsil sahəsində mövcud olan problemlər təhsilin idarə edilməsi və tədrisin təşkili ilə bağlıdır. Burada mövcud normativ hüquqi aktların yerinə yetirilməsinə nəzarət etmək lazımdır. Bir neçə məktəbdə hansısa pilot layihəni həyata keçirib sonra həmin layihə uğursuz oldu deyə geri qalan məktəbləri ortada qoya bilmərik. Təhsilin inkişafı Azərbaycan dövlətinin əsas fəaliyyətini təşkil edir. Bu sahədə dövlət və fəaliyyət proqramları da təşkil olunub. Hazırda həyata keçirilən pilot layihələr sadəcə yaranmış gərgin vəziyyəti yatışdırmağa yönəlmiş addımlardır".

*Ekspert həmçinin bildirib ki, ölkədə tədrisin əlçatanlığı təmin olunsa da, keyfiyyət yoxdur:* "Təhsilin keyfiyyətini istəyiriksə, müəllimlərin sosial vəziyyətini yaxşılaşdırmalıyıq. Onlara kommunal ödəmələrlə bağlı müəyyən güzəştlərlə bərabər maaşlarından tutulan vergidən də azad etməliyik. Bu yolla nə isə etmək mümkündür. Ancaq görüşlər keçirməklə sadəcə müəllimlərin dərslərinə mane olacağıq. Bu layihəni həyata keçirənlərin orta məktəbdən xəbəri yoxdur. İnternetdən nə isə götürüb əzbərləyib gəlirlər ki, məktəbdə bunları tətbiq edək. Bu sahədə hansı işlərin görülməli olduğu haqda fəaliyyət proqramı var. Ora ayrılacaq və kiminsə cibinə gedəcək pulları müəllimlərin maaşlarına əlavə etmək lazımdır".

**Sənan İsmayıl**

# Məryəm Rumıniyada 1-ci yerə layiq görülüb

## Balaca rəssam insanların görmədikləri gözəllikləri çəkir








***10 yaşlı qızcığazın qazandığı uğurlar, layiq görüldüyü mükafatlar, təltiflərin sayı boyunu çoxdan aşıb***

**Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının Təsviri və tətbiqi sənət şöbəsinin 4-cü sinif şagirdi Məryəm Elçin qızı Mövlamlı Rumıniyada keçirilən "Poveste de Iarna-Winter story" beynəlxalq müsabiqədə 1-ci yerə layiq görülüb. Bu, Məryəmin ilk uğuru deyil.**

10 yaşlı qızcığazın qazandığı uğurlar, layiq görüldüyü mükafatlar, təltiflərin sayı boyunu çoxdan aşıb. Məsələn, Məryəm İordaniya səfirliyinin təşkil etdiyi "İordaniya uşaqların gözü ilə", həmçinin "Bolqarıstan uşaqların gözü ilə" rəsm müsabiqələrinin də qalibi olub. Məryəm Gimnaziyanın birinci sinfində təhsil alanda ilk fərdi sərgisi təşkil olunub. Təhsil naziri Emin Əmrullayevin imzası ilə təşəkkürnaməsi də var. Məryəmin mükafatlarını saymaqla bitməz. **Bu istedadlı balamız haqqında "Şərq"ə anası Aysel xanım danışdı**:

- Məryəmi yaşıdlarından fərqləndirən cəhət təkcə gözəl rəsmlər çəkməsi deyil. Məryəm, özü haqqında danışmağı sevmir. Ümumiyyətlə, az danışan, daha çox düşünən uşaqdı. Məsələn, ailəmizlə gəzintiyə çıxırıq. Bizə adi görünən hadisəni, mənzərəni Məryəm fərqli nəzərlə görür, evə qayıdanda gördüklərini çəkir. O, şəkli çəkəndən sonra biz fərq edirik ki, axı bu mənzərəni və ya hadisəni biz də görmüşdük, amma əhəmiyyət verməmişik. Məryəm isə demək ki, ətrafda baş verənlərə yaradıcı nəzərlə baxır. Bizim görmədiyimiz gözəllikləri görür və rəsmini çəkir.

**Aysel xanım dedi ki, Məryəm 2-3 yaşından rəsm çəkməyə başlayıb. Çəkdiyi rəsmlər 3 yaşlı uşağın deyil, sanki 10 yaşlı uşağın rəsmi idi. Uşağın istedadını görən valideynləri onu İncəsənət Gimnaziyasına aparıb:**

- Biz inanmırdıq ki, Məryəmi Gimnaziyaya qəbul edəcəklər. Gimnaziyaya məlum qəbul şərtləri var. Məryəm isə hazırlıqsız idi. Bir neçə rəsm əsərini təqdim etdik. İmtahan verdi və xəbər gəldi ki, övladınız qəbul olunub. Əlbəttə, çox sevindik. Məryəm Gimnaziyada təhsil almağa başladı və artıq 1-ci sinifdə həmyaşıdları arasında keçirilən rəsm müsabiqəsinin qalibi oldu. Bununla da "ulduzlu" şagirdlər siyahısına daxil oldu. Bu, Məryəmə müəllimlə individual hazırlıq imkanı qazandırdı. Gimnaziyada belə qayda var: "ulduz" alan şagirdlərlə müəllimlər fərdi qaydada dərs keçir. Sonra da uğurları getdikcə artdı, müsabiqələrdə qalib oldu, ilk fərdi sərgisi təşkil olundu...

**Məryəmin Qarabağ müharibəsini, Şuşa qalasını, Qanlı yanvarı əks etdirən rəsm əsərləri var. Həmçinin, pandemiya mövzusunda da. Bu, xüsusi mövzudur:**

- Ailəmiz koronavirusa yoluxdu. Mən də, Məryəmin atası da. Atasının vəziyyəti ağır idi. Oksigen balonuna qoşulmuşdu. Mən də xəstəxanada idim. Məryəm və bacıları (qeyd edək ki, Məryəmin kiçik yaşlı əkiz bacıları var - M.R.) nənələrinin yanında qalırdılar. Məryəm zəng edirdi, halımızı soruşurdu. Nəhayət biz xəstəxanadan çıxdıq. Məryəm isə o ağır günlərimizi çəkdiyi rəsm əsərində təsvir etdi. Həkimi isə qanadlı mələk obrazında təsvir edib. Daha çox təbiət mənzərələrini, çiçəkləri çəkməyi sevir. Amma həyatımızda baş verən hansısa təsirli hadisələri, yaddaşında qalanları rəsmdə əks etdirir. Məsələn, 20 Yanvar günü Məryəm evdə idi. Bir neçə gündür Gimnaziyaya da getmirdi, sinifləri karantinə bağlanmışdı. 20 Yanvarla bağlı rəsm əsəri çəkdi. Ümumiyyətlə, uşaqlara mövzuları müəllimləri də verir, özləri də sərbəst, istədikləri mövzuda rəsm çəkirlər.

**Aysel xanım Gimnaziyanın direktoru Aytən Əhmədovaya təşəkkür etməyi də unutmadı:**

- Aytən xanımın əziyyəti çoxdur. Gimnaziyanın şagirdləri istedadları üzrə istiqamətdə çalışmaqdan əlavə daha hansısa sənət növündə məşğul olurlar. Özləri seçir, bəyəndikləri sənət növünü. Məsələn, Məryəm rəssamlıqla yanaşı, tikiş sənətini də öyrənir. Parça üzərində rəsm çəkir. Bunu rəssamlığın bir qolu kimi öyrənir. Fortepiano sinfində təhsil alanlar xor da oxuyur və sair. Məryəmin rəssamlıq istedadında nəsil-şəcərənin də rolu var. Anası dedi ki, Məryəmin əmisi Rəssamlıq Akademiyasını bitirib. Babası isə memar olub. Məryəm kiçik yaşlı bacılarını da qanadlı mələklər obrazında çəkib. Baxmayaraq ki, bacılarının nadincliyinə hərdən hirslənir; rənglər və fırçasından icazəsiz istifadə etdikdə. Amma onları çox sevir. Balaca mələklərdir onlar...

**Məlahət Rzayeva**

# Mütləq hamam otağının nəfəsliyi olmalıdır

## Səssiz və rəngsiz ölüm təhlükəsindən qurtulmaq üçün qaydalara əməl olunmalıdır



**Dəm qazından zəhərlənmə hallara indi daha çox rast gəlinən bədbəxt hadisələrdəndir. Toksikoloji şöbəyə xəstələrin zəhərlənmələrlə daxil olması barədə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, Azərbaycan Səhiyyə Nazirliyinin baş toksikoloqu Azər Maqsudov Media.Az-a danışıb. Toksikoloq indiki dövrdə ən çox dəm qazı ilə zəhərlənmə hallarına rast gəlindiyini vurğulayıb.**

Dəm qazı zəhərlənməsi zamanı ölüm halının qarşısını almaq üçün ilk növbədə onun əlamətlərini bilmək və düzgün şəkildə ilkin yardım göstərmək lazımdır.

Hər gün can alan səssiz və rəngsiz ölüm təhlükəsindən yaxa qurtarmaq üçün hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?

**Mövzu ilə bağlı "Şərq"ə danışan təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, dəm qazını yaradan əsas səbəb yanma prosesinin düzgün getməməsidir:**

"Ceyran peçi", "İran sobaları" kimi qaz sobalarından istifadəni yığışdırmaq lazımdır. Standartlara cavab verməyən qaz sobalarından istifadə etdikdə, tüstü bacalarının vaxtında təmizlənməməsi, qaz cihazlarına kənar müdaxilələr, təmir işləri aparılan zamanı doğru avadanlıqların, detalların dəyişilməsi dəm qazını əmələ gətirən səbəblərdir. Qaz xətləri qeyri-metal borularla çəkilir. Bəzən istilik gəlmir deyə, qaz sobasına kənar müdaxilələr edilir. Bunu da peşəkar adam etmir. Dost-tanış çağırırlar, qazın təzyiqi ilə bağlı əməliyyatlar həyata keçirirlər. Sonra deyirlər, qaz çox gəldi. Belə müdaxilə ilə qazın çoxalmasında dəm qazının yaranması qaçılmazdır. Hansı evdə qaz bu cür təchiz olunursa, orda dəm qazından zəhərlənmə halları baş verir. Dəm qazı əleyhinə detektorlardan yararlanmaqları yaxşı olar. Evdə dəm qazı qoxusu hiss edildiyi təqdirdə detektorlar avtomatik şəkildə elektromaqnit şüanı ötürür, qazın təchizatı dayanır. Tüstü bacaları heç olmasa ildə bir dəfə təmizlənməlidir. Mütləq hamam otağının nəfəsliyi olmalıdır, qapının aşağı hissəsində kiçik dəliklər açmaq zəruridir. Onun sayəsində hava dövr edəcək. Əgər dəm qazı yaranarsa, içəridəki insanın zəhərlənməsi qaçılmaz olur".

**Aygün Tahir**



## Pfizer vaksini vurduran həkim koronaya yoluxdu

### "İndi mən özümü tam peyvəndsiz kimi hiss edirəm"

**"İki gundur özümü pis hiss etdim və test verdim Kovid pozitiv oldu. Əlamətlərə görə omikron ştammıdı deyilir.**

İndi bu omikrondusa kovid testi niyə pozitiv verir, Koviddisə bəs 2 pfizer peyvənd niyə immunitet yaratmadı?

Anticisim səviyyəm isə 1874. Elə də yüksək deyil. İndi mən özümü tam peyvəndsiz kimi hiss edirəm, çunki kifayət qədər görünən əlamətlərlə xəstəliyi keçirirəm.

Medicina.az xəbər verir ki, bu sözləri kovidə yoluxmuş pediatr Aytən İsmayılzadə bildirib.

"Müalicədə heç nəyin mütləq təsiri yoxdu desək də yüksək doza vitamin C və biotənzimləyici terapiyadan, antitromb vasitə istifadə edirəm. Öskurəyi kəsməyə, hərarəti həmən salmağa cəhd etməyin. Cəhdləriniz zərərinizə olar. Minimum bədən ağrılarına görə aktiv hərəkət etmirik və enerjimizi immunitetin mubarizəsi üçün saxlayırıq. Evdə özunuzdə pozitiv olarsa uşaqları bir həftə, on gun məktəbə göndərməyin. Onlarda əlamətləri izləyin".

## Zeynəb Xanlarova xalqa səsləndi

### "Uşaqlarınızı təhsilə yönəldin, onların öz ayaqları üzərində durmasına dəstək olun, qayğı göstərin"



**Xalq artisti Zeynəb Xanlarova ARB telekanalında yayımlanan "Səni axtarıram" proqramında canlı yayımda qaynanasını öldürdüyünü etiraf edən Əfsanə Məmmədova olayına münasibət bildirib.**

O açıqlamasında əməkdar jurnalist Xoşqədəm Hidayətqızına dəstək olaraq qızlarını uşaq yaşında ailə qurmağa məcbur edən, təhsildən yayındıran valideyinlərə səslənib. Onları övladlarına ilk növbədə təhsil verməyə çağırıb.

**Bunu manset.az-a açıqlamasında Zeynəb Xanlarova açıqlamasında bildirib.**

"Mən əziz xalqıma səslənirəm, uşaqlarınızı təhsilə yönəldin, onların öz ayaqları üzərində durmasına dəstək olun, qayğı göstərin. Qız uşaqlarının təhsil alması daha önəmlidir. Bir qadının təhsilli olması bir ailənin təhsilli olması deməkdir ki, cəmiyyət də ailələr üzərində qurulur."

**Xalq artisti daha sonra açıqlamasında qeyd edib:**

"Bir neçə gün qabaq Xoşqədəm xanımın verilişində olan hadisə, Əfsanənin başına gələnlər və törətdiyi faciələr. Bu məni çox sarsıtdı Bunun əsas səbəbkarı valideyinlərdir. Qız uşaqlarını körpə yaşında evliliyə zorlamaq olmaz. Erkən yaşında evlilikdənsə, qızlarımızı oxumağa yönəltməliyik."



## Həftəsonu temperatur 10 dərəcə enəcək, qar yağacaq

**Bakıda və Abşeron yarımadasında fevralın 5-də arabir yağıntılı olacağı, şimal-qərb küləyinin arabir 15-20 m/s, səhər və gündüz bəzi yerlərdə arabir 23-28 m/s-dək güclənəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən bildirilib ki, havanın temperaturu ötən günlərlə müqayisədə 8-10° aşağı enəcək.

Azərbaycanın rayonlarında fevralın 4-ü axşam qərb rayonlarından başlayaraq 6-sı səhərədək bəzi rayonlarda hava şəraitinin fasilələrlə yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Yağıntıların əsasən Böyük Qafqazın Quba-Qusar bölgəsində, Şərqi Zəngəzur, Qarabağ və Daşkəsən-Gədəbəy zonasında intensiv olacağı ehtimalı var.

Qərb küləyi arabir 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək. Əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlama ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-10° aşağı enəcək.

## İntihar yox, qəza, yuxusuzluq, əsəb...

### "Hüseyn Dərya avtomobildə bir parça çörək tapmışdı, onu yeyirdi"



**2014-cü il martın 15-də dünyasını dəyişən mərhum reper Hüseyn Dəryanın ölümü ilə əlaqədar bəzi məqamlara aydınlıq gətirilib.**

Prodüser, jurnalist Sayqa Cahid mərhum reper Hüseyn Dəryanın ölümünə dair iddiaları cavablandırıb.

**"Şərq"in məlumatına görə, "O Üz" verilişinin qonağı olan S.Cahid reperin intihar etmədiyini bildirib:**

"Hüseyn Dəryanın ölümü qəza, yuxusuzluq, əsəb idi.

Elə şeylər var, adam danışa, deyə bilmir. Avtomobildə bir parça quru çörək tapılmışdı. O çörəyi yeyirdi ki, çatdırıb studiyada işini görə bilsin. Nə intihardan danışırsız?".

**Aygün Tahir**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 352

## AzTV yaranan gündən işləyir

Nəriman Şıxəliyev 88 yaşında vəfat edib





**AzTV-nin əməkdaşı, əməkdar mədəniyyət işçisi, operator Nəriman Şıxəliyev vəfat edib.**

O, 88 yaşında dünyasını dəyişib. Qeyd edək ki, Nəriman Məşədi Səttar oğlu Şıxəliyev 1934-cü ilin 14 oktyabrında Bakıda anadan olub. 1956-cı ildən Azərbaycan Dövlət Televiziya Komitəsi yaranan gündən burada kinooperator kimi fəaliyyət göstərib. Uzun illər Ekran yaradıcılıq birliyində çoxlu televiziya filmləri çəkib. Azərbaycan Dövlət Televiziyasının kinooperatoru Nəriman Şıxəliyev Proqram Direktorluğunun efirqabağı komissiyasının üzvü olub. Əmək veteranı olan Nəriman Şıxəliyev milli televiziyanın inkişafındakı böyük xidmətlərinə görə 30 dekabr 1981-ci ildə "Azərbaycan SSR əməkdar mədəniyyət işçisi" fəxri adına, 4 noyabr 2006-cı ildə isə "Tərəqqi" medalına layiq görülüb.

## Xərclər azaldı

Küçədəki siqaret kötüklərini qarğalar təmizləyir



**İsveç şirkəti küçə və meydanlardan siqaret kötüklərini toplamaq üçün qarğaları işə cəlb edib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, "Corvid Cleaning" adlı şirkət işə götürdüyü qarğalara mükafat olaraq yem verir.

Şirkətin atdığı addım dünya mətbuatında böyük maraqla qarşılanıb. Qeyri-adi hadisə İsveçin paytaxtı Stokholm yaxınlığındakı Södertalje bölgəsində yaşanıb. Qarğalar xüsusi hazırlanmış maşınlara atdıqları hər siqaret kötüyünə görə mükafat olaraq yemək alırlar.

Onlar küçələrin təmizlənməsi işini görürlər. Şirkətin qurucusu Kristian Günter-Hanssen, xərcləri azaltmaq üçün qarğaları öyrətdiklərini bildirib:

"Əslində, quşlar könüllüdür. İsveçdə hər il bir milyarddan çox siqaret kötüyü küçələrə atılır. Bu, ümumi tullantının 62 faizini əhatə edir. Onlar bu işi bir-birilərindən öyrənirlər. Qarğaların siqaret kötüklərini təsadüfən udma riski də azdır". Södertalje şəhərin küçələrinin təmizlənməsinə 20 milyon isveç kronu xərcləyir. Təxminlərə görə, qarğalar şəhərdə bu xərci 75 faizə qədər azalda bilər.

**Çimnaz Şahlar**







# "Yaşamaz, ölür", dedilər

Hiranurun sevgisi buzovu həyata qaytardı



**Türkiyənin Sivas bölgəsinin Sofular kəndində vaxtından əvvəl doğulmuş buzov evdə - 5 yaşlı Hiranurla birgə böyüyür. Buzov kəndin muxtarı Fatih Yıldırımın kiçik təsərrüfatına aid ahırda doğulub.**

"Şərq" "Milliyet.con"a istinadən xəbər verir ki, boğaz inəyin balasını dünyaya gətirmə vaxtı hələ yetişməyibmiş. Amma inək birdən rahatsızlanıb və buzov dünyaya gəlib. 1 ay tez dünyaya gəlmiş buzov üşüməsin deyə muxtar onu evə gətirib, sobanın yanında yatacaq yeri düzəldib. Buzova "Benikli" adı verilib. Dünyaya gəldiyində 10 kiloqram olub. Baytar həkim buzovun həyatda qalmaq şansının 100-də 20 olduğunu söyləyərək, "yaşamaz, ölür", deyib. Amma Allah öldürməyincə, kimsə ölməz, deyərlər. Muxtar da, kiçik qızı Hiranur da buzova qulluq etməyə başlayıb. Hiranur buzovu yanından ayırmayıb, birlikdə yatıb-qalxıblar. Buzovu əmzikli şüşəyə tökdükləri südlə qidalandırıblar. Buzovun nə dişləri varmış, nə dırnaqları, nə də tükü. Amma Hiranurun sevgisi və qayğısıyla qısa müddətdə ayağa qalxıb. Fatih Yıldırım deyir ki, buzov böyüdükdə onu ahıra aparmalı olacaqlar: "qızım onsuz nə edəcək? Elə bağlanıb ki, buzova. Buzov da ona. Onları bir-birindən ayırmaq çətin olacaq". Buzov Hiranuru addım-addım izləyir. Uşaq hara gedirsə, ardınca düşür. Bəzən oynayırlar, sonra da birlikdə yuxuya gedirlər.

**Məlahət**

## Hər 3 gənc qızdan 2-si təcavüzə məruz qalır

**Hollandiyada qadınların 85 faizi təqib olunduğundan narahatdır**



**Hollandiyada aparılan araşdırma xoş olmayan reallığı üzə çıxarıb.**

**Metbuat.az xəbər verir ki, araşdırmaya görə, Hollandiyada hər 3 gənc qızdan 2-si təcavüzə məruz qalır. Təcavüz əsasən fit çalma, sözlə sataşmaq bəzən isə fiziki formada olur. Məsələ hökumət tərəfindən artıq nəzarətə götürülüb. Hökumət xoşagəlməz halların qarşısını almaq üçün qanuna dəyişiklik etməyə hazırlaşır. Küçədə qızlara təcavüz edənlər üçün cəzaların müəyyən edilməsi nəzərdən keçirilir. Qadınların sözlərinə görə, küçə təcavüzləri onlarda qorxu yaradır. Qadınların 85 faizi təqib edilməsindən narahatdır.**

## Kuryerləri də robotlar əvəzlədi

**8 kiloqrama qədər daşıma qabiliyyətinə malikdir**



**Pandemiya zamanı təmassız çatdırılmaya ehtiyac artıb.**

**Oxu.az xəbər verir ki, mövcud tələbi qarşılamaq üçün Kolumbiya startapı olan "Kivi" tərəfindən hazırlanmış robot kuryerlər tətbiq edilib. Artıq Cənubi Amerika ölkəsində verilən bir çox sifarişlər ünvanlara məhz bu robotlar vasitəsilə çatdırılır.**

**8 kiloqrama qədər daşıma qabiliyyətinə malik "Kivibot"lara dünya ölkələrində də tələbat artır.**

**Robotlara ümumi texniki qulluq və sınaq işləri isə "Kivi"nin Medellindəki ofisində aparılır.**

## Ağıllı nişan üzükləri yaradılır

**Ərin hara getdiyini xəbər verəcək**



**Apple şirkəti yeni ağıllı texnoloji nikah üzükləri hazırlayacaq.**

**Medicina.az xəbər verir ki, üzüklərdəki proqranla həyat yoldaşının gün ərzində olduğu yerlər barədə məlumat ala biləcəksiz. Əgər ər və ya arvad üzüyü çıxarsa, qarşı tərəfi blok etsə, proqramı saxlasa, bu barədə də xəbər veriləcək.**

**Üzük həmçinin arterial təzyiq, ürəkdöyünmə, bəzi tibbi göstəriciləri də qeydə alacaq.**

**Texnoloqlar əmindir ki, bu üzüklər qadın və kişi sədaqətini artıracaq, ailələri möhkəmləndirəcək.**



## Atatürkün abidəsinə sayğısızlıq

Kəndirlə yıxmaq istədilər, 2 nəfər saxlandı

**Türkiyənin Samsun şəhərində Atatürk adına parkda milli mücadilənin rəmzi sayılan heykələ qarşı sayğısızlıq edilib. Parkda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün at üstündə möhtəşəm abidəsinə kəndir ataraq yıxmaq istəyən 2 nəfər yaxalanıb. Səhər saatlarında parka gələnlər heykəl atın ayaq hissəsinə kəndir bağlandığını görüb.**

Bu barədə dərhal polisə məlumat verilib. Hadisə yerinə gələn polis əməkdaşları at heykəlinin ayağına bağlanmış kəndiri kəsərək sübut əşyası kimi müsadirə ediblər. Parkda quraşdırılmış təhlükəsizlik kameraları da incələnib. Kamera görüntülərindəki 2 nəfər qısa zamanda yaxalanıb. Samsun valiliyinin hadisə barədə yaydığı açıqlamada bildirilir ki, Qazi Mustafa Kamal Paşanın milli mücadilə yolunda ilk addımlarını atdığı Samsunda ucaldılmış abidəyə qarşı sayğısızlıq qəbuledilməzdir və bu mənfur hərəkətin kimlər tərəfindən və hansı məqsədlə edildiyi mütləq araşdırılacaq. Atatürkçü Düşüncə Dərnəyinin Samsun şöbəsinin başqanı Işık Özkefeli hadisə yerinə gəlib və "çox üzgünüm. Bu abidə Samsun xalqının Atatürkə vəfa borcu və şəhərin qürurudur. Ona qarşı belə çirkin hərəkət cəzasız qalmamalıdır", deyib. Hadisə barədə məlumat alan siyasi partiya və ictimai birliklərin üzvləri də parka axışıb. CHP Samsun başqanı Fatih Türkel "bu işin arxasında kimlər var, öyrənəcəyik. Bu, 2 nəfərin işi deyil. Burada bilərəkdən və qəsdən qurulmuş məkrli bir plan vardır", söyləyib. Sonra ziyarətçilər abidə ətrafında əl-ələ tutub dairə əmələ gətiriblər. AKP, MHP, BBP təmsilçiləri də abidə önünə gələrək təəssüflərini ifadə ediblər. AKP Samsun başqanı Ersan Aksu hadisəni "açıq təxribat" adlandırıb.

**Məlahət**

## Astarada nadir qayaüstü təsvir...

...Lerikdə isə 5 kurqan aşkarlanıb



**Astara və Lerikdə aparılan arxeoloji tədqiqatlar zamanı yeni tapıntılar aşkar edilib.**

AMEA-dan APA-ya verilən məlumata görə, bunu Rəyasət Heyətinin növbəti iclasında məruzə ilə çıxış edən Lənkəran Regional Elmi Mərkəzinin direktoru, aqrar elmlər doktoru Fərman Quliyev deyib.

"AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşları ilə birgə Astara rayonunun ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Sım kəndində bölgə üçün nadir hesab edilən yeni qayaüstü təsvirlər, Lerik rayonunun Mistan kəndi ərazisində isə Son tunc və erkən dəmir dövrünə aid olunması ehtimal edilən 5 yeni iri və orta ölçülü kurqan aşkarlanıb", - o, məruzədə vurğulayıb.

## "Mən hələ gəncəm"

Heyli uşaq sahibi olmağa tələsmir




**Kanadalı müğənni Castin Biberin həyat yoldaşı, model Heyli Biber övlad düşünüb-düşünmədikləri ilə bağlı sualları cavablandırıb.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, model sonuncu açıqlamasında ümumiyyətlə, bu mövzuda evli qadınların üzərində müəyyən təzyiqin olduğunu bildirib:

"Evli qadınlar tez-tez bununla qarşılaşırlar. Hər kəs "əvvəlcə sevgi, sonra evlilik, daha sonra isə körpə gəlir" kimi düşünürlər".

Heyli hazırda uşaq sahibi olmağa tələsmədiyini və hələ gənc olduğunu əlavə edib:

"Mən hələ də gəncəm. Bu il planlarımız arasında uşaq yoxdur. Düşünürəm ki, növbəti bir neçə ildə buna cəhd edəcəyik".

*Qeyd edək ki, bir müddət əvvəl Castinin "ata və ana" şərhi ilə paylaşdığı foto bu mövzuda Heyli ilə həmfikir olmadıqlarını göstərir.*

## Daha üç il bizimlədir

Alimlər pandemiyanın bitmə vaxtını açıqladı




**Rospotrebnadzor Q.P. Somov adına Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunun direktoru, Uzaq Şərq Federal Universitetinin Biotibb fakültəsinin Epidemiologiya şöbəsinin müdiri Mixail Şçelkanov koronavirus pandemiyasının bitmə tarixini açıqlayıb.**

Alimin fikrincə, belə şəraitdə daha üç il yaşamalı ola bilərik. (publika.az)

"Bir çox regional xüsusiyyətlər var, lakin ümumi uzunmüddətli tendensiyadan danışsaq, o zaman 2022-ci ildə, eləcə də 2023-cü ildə hələ də pandemiya ilə yaşamağa hazır olmalıyıq, ola bilsin ki, 2024-cü ildə də. Ancaq hər şey əsasən bizim kollektiv immunitet səviyyəmizin nə qədər sürətlə artacağına və kollektiv immun səviyyəsinin virusun dəyişkənliyinə uyğun olub-olmayacağına görə müəyyənləşəcək", - Şçelkanov RİA Novostiyə açıqlamasında qeyd edib.

## Sevgili olduqları deyilmişdi, amma...



**Türkiyəli aktyor Kaan Yıldırımla sosyal mediya fenomeni Danla Bilic haqlarında çıxan eşq iddialarına aydınlıq gətirib.**

Axşam.az xəbər verir ki, ikili məlumatları təkzib edib. Kaan instaqram hesabında paylaşdığı videoda "alone" ("yalnız") şərhini qeyd edib.

Danla isə tviterdə "Bu gün kiçik əməliyyat oldum. İnanırsınız, plastik əməliyyat deyil. Xəbərlərə görə, sevgilim var imiş, məndən sürətlisi məzarlıqdadır" - deyə, yazıb.

*Qeyd edək ki, Kaan bundan əvvəl müğənni Hadisə və aktrisa Tuğçe Açıgözlə, Danla isə Yusuf Enginlə münasibətdə olub.*